Günəş Şərqdən doğur!

❐ № 128 (5409), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 23 iyul 2021-ci il (cümə)



## Oktyabrda yoluxma sayı pik həddə çatacaq

Azərbaycanda karantin qaydalarının sərtləşməsi gözlənilәndir

(səh.13)



### Prezident şəhid jurnalistlərimizin ailələrinə mənzil hədiyyə etdi

İlham Tumas: Dövlətimizin yürütdüyü siyasət olduqca təqdirəlayiqdir"

22 iyul - Milli Mətbuat günündə Prezident İlham Əliyev iki şəhid jurnalistin - AzərTAC-ın əməkdaşı İbrahimov Məhərrəm Əli oğlunun və AzTV-nin operatoru Abışov Sirac Abış oğlunun ailələrinə mənzillər hədiyyə edib.

(səh.5)

### İşlər gedir

Zəngəzur dəhlizi açılacaq



Məlum olduğu kimi, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev artıq tarixi Azərbaycan torpaqları olan Qərbi Zəngəzur məsələsini gündəmə gətirib.

(səh.6)

# Putinlə fikir ayrılığı yoxdur

## "Bundan sonra bölgədə sülh olmalıdır, müharibə riskləri minimuma endirilməlidir"



"Rusiya Prezidentinin dəvəti ilə mən növbəti dəfə Rusiyaya səfər etmişəm və səfər zamanı çox geniş fikir mübadiləsi aparıldı - ilk növbədə, ikitərəfli məsələlərlə bağlı və əlbəttə, postmünaqişə vəziyyəti ilə bağlı".

(səh.2)

# Boğulan adamlar...

## Dərinə getməyin, cənablar!




Üzə bilməyən adam çiynindən yuxarı suya girməməlidir

(səh.9)

✓ **Baş nazir qərar imzalayıb**

Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

(səh.3)

✓ **Bölgəyə yeni nizam, yeni düzən gəlir**

Azərbaycan NATO-nun təlimlərində qalib ölkə kimi iştirak edir

(səh.6)

✓ **Ortada başqa mövzu var**

Paşinyan hazırda Fransanın dili ilə danışmağa başlayıb

(səh.7)

✓ **Səbrin yoxdusa, bu iş sənlik deyil**

"Şərq"in əməkdaşı balıqçının sirlərini öyrəndi

(səh.13)

# Putinlə fikir ayrılığı yoxdur

## “Bundan sonra bölgədə sülh olmalıdır, müharibə riskləri minimuma endirilməlidir”




### Prezident İlham Əliyev: “Rusiya prezidenti ilə Zəngəzur dəhlizini və postmünaqişə dövrünü müzakirə etdik”

**“Rusiya Prezidentinin dəvəti ilə mən növbəti dəfə Rusiyaya səfər etmişəm və səfər zamanı çox geniş fikir mübadiləsi aparıldı - ilk növbədə, ikitərəfli məsələlərlə bağlı və əlbəttə, postmünaqişə vəziyyəti ilə bağlı”.**

Bu barədə Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

Dövlətimizin başçısı deyib: ”İkitərəfli münasibətlərə gəldikdə, bildiyiniz kimi, Rusiya və Azərbaycan strateji tərəfdaşlardır və bu, sadəcə olaraq, söz deyil. Real həyatda da biz strateji tərəfdaşıq, çünki uzunmüddətli strateji əməkdaşlıq perspektivləri ilə bağlı fikir ayrılığı yoxdur. Bizim aramızda çox möhkəm dostluq əlaqələri var və şəxsən mənim cənab Putinlə çox yaxın əlaqələrim var, biz bir-birinə inanan siyasətçilərik. Bu, çox önəmlidir və bu səfər zamanı ikitərəfli məsələlərin gündəliyi müzakirə olundu”.

Azərbaycan Prezidenti qeyd edib ki, hazırda yeddi yol xəritəsi üzərində işləyirik. Hər bir yol xəritəsi konkret sahəyə aiddir. Hər bir sahə üzrə də yaxşı nəticələr var. Bu dəfə daha çox ticarət, iqtisadi, nəqliyyat, humanitar məsələləri müzakirə etdik. ”Nəqliyyat məsələlərinə gəldikdə, əlbəttə ki, həm əvvəlki dövrdə razılaşdırılmış məsələləri, ”Şimal-Cənub” nəqliyyat dəhlizini, perspektivləri-ni, eyni zamanda, müharibədən sonra yaranmış vəziyyəti, o cümlədən Zəngəzur dəhlizini və postmünaqişə dövrünü müzakirə etdik. Bizim yanaşmamızda fikir ayrılığı yoxdur. Biz - Rusiya və Azərbaycan hesab edirik ki, müharibə başa çatıb, münaqişə başa çatıb. Ermənistanda heç bir revanşist meyillərə yol verilməməlidir və bundan sonra bölgədə sülh olmalıdır. Müharibə riskləri minimuma endirilməlidir və aradan qaldırılmalıdır. Burada bizim aramızda heç bir fikir ayrılığı yoxdur, biz də eyni fikirdəyik. Zəngəzur dəhlizinə gəldikdə, mən cənab Putinə bildirdim ki, bizdə olan məlumata görə, Ermənistan bu məsələ ilə bağlı yenə də özünü səmimi aparmır. Fikir vermisinizsə, mən cənab Şarl Mişellə mətbuat konfransında dedim ki, bütün yollar paralel şəkildə açılmalıdır və selektiv yanaşma olmamalıdır, yəni ayrı-seçkilik olmamalıdır. Amma biz görürük ki, Ermənistan burada da növbəti dəfə hansısa oyun oynamaq istəyir”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

**“Müharibədən ən çox əziyyət çəkən ölkə Azərbaycandır, amma pulu Ermənistana verirlər”**

*Prezident İlham Əliyev müsahibəsində Avropa İttifaqının Ermənistana 2,6 milyard avro, Gürcüstana 2,3 milyard avro vəsait ayırmasına, Azərbaycana isə heç bir vəsait ayrılmamasına da münasibət bildirib.*

**Dövlətimizin başçısı bu mövqeyi ədalətsiz adlandıraraq deyib:** ”Azərbaycana gəldikdə, 150 milyon avro rəqəmi səsləndirildi, amma konkret bizə deyilmədi bu, nə rəqəmdir və nə vaxt veriləcək, verilməyəcək, bunun şərtləri nədir? Əlbəttə, mən hesab edirəm ki, bu, ədalətsiz mövqedir. Çünki Azərbaycan Cənubi Qafqazın ən böyük ölkəsidir həm ərazisi, həm əhalisi, həm də potensialı baxımından. Bu günə qədər Cənubi Qafqaz ölkələrinə belə böyük məbləğdə vəsait verilmirdi. Yəni bu, onu göstərir ki, bu vəsait məhz müharibədən sonra verilir. Yəni, bu vəsaitin verilməsinin səbəbi müharibədir. Əks təqdirdə, 30 il bundan əvvəl verəydilər, niyə məhz indi verirlər? Əgər belədirsə, onda müharibədən ən çox əziyyət çəkən ölkə Azərbaycandır. Azərbaycana bu vəsait verilməlidir”.

Azərbaycan Prezidenti qeyd edib ki, 10 min kvadratkilometr ərazi tamamilə dağıdılıb, erməni vandalları tərəfindən məhv edilib. 100 minlərlə mina döşənilib və bütün binalar, tarixi binalar, bütün infrastruktur məhv edilib. ”Amma pulu verirlər Ermənistana. Ermənistanda bir dağıntı var? Yoxdur. Mina döşəmişik orada? Yox. Bu qədər işğaldan əziyyət çəkən ölkə olub? Yox. Əlbəttə bu, ədalətsizdir. Bu məsələ ilə də bağlı əlbəttə, fikir mübadiləsi oldu. Cavab elə oldu ki, Azərbaycana elə bil ki, vəsait lazım deyil. Birincisi, bizə heç kim təklif etməyib, bizə təklif edin, mən deyərəm, bizə lazımdır, yoxsa yox. Amma bizə heç kim təklif etmədiyi halda deyirlər ki, Azərbaycana vəsait lazım deyil. Bəs azad edilmiş torpaqları biz bərpa edəsi deyilik? Milyardlarla dollar vəsait lazımdır, o, göydən düşür? Azərbaycan şəffaf bir ölkədir. Maliyyə resursları da bəllidir. Bəli, biz özümüzü təmin edən ölkəyik. Amma əgər bizə də Ermənistan kimi qrant olaraq vəsait verilsə, biz heç vaxt imtina etmərik, - deyə Azərbaycan Prezidenti əlavə edib.

**“25 min insan üçün status yaratmaq hansı məntiqə sığır?”**

“Bu, süni şəkildə Azərbaycanın içində daim bir münaqişə ocağı yaratmaq üçün sovet hökuməti tərəfindən ortalığa atılmış təxribat idi. Bizim tarixi torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayətini yaratmaq, bir kəndi - Xankəndini, hansı ki, kənd idi, onu oranın mərkəzi etmək və cəllad Şaumyanın adını vermək Azərbaycan xalqına qarşı çox mənfi bir addım idi. Bizim üçün təhqir idi”.

*Prezident İlham Əliyev qeyd edib ki, tarix hər şeyi yerinə qoyub.*

”Ancaq statusa gəldikdə, bu gün orada 25 min adam yaşayır. Orada gedən proseslərlə bağlı bizim məlumatımız kifayət qədər böyükdür, çoxşaxəlidir. Biz əvvəllər də, müharibədən əvvəl də bilirdik orada nələr baş verir. Əlbəttə, indi də bilirik, çünki onlar bizim ayağımızın altındadır. Orada yaşayanların real sayı 25 mindir. Başqa rəqəmlər də səsləndirilib ki, müharibədən sonra oraya 50 mindən çox adam qayıdıb, ola bilər, ancaq qayıdan o demək deyil ki, orada qalır. Qayıdıb, sonra çıxıb gedib, geri dönüb. İkincisi, bizim müxtəlif texniki vasitələrimiz, peykimiz var. Biz oradakı maşınların sayını bilirik. Biz insanların hərəkətini görürük. Necə deyərlər, digər obyektiv vasitələr var ki, onları əsas götürüb, dəqiq bilirik orada nə qədər adam yaşayır - 25 min maksimum. Biz gündəlik monitorinq aparırıq, neçə maşın girib Laçın dəhlizinə, neçə maşın çıxıb. Eyni zamanda, biz xaricdən gələn maşınları da görürük və demişik ki, buna son qoyulmalıdır, bu, yaxşı deyil, bu, bizim ərazimizdir. Bizim icazəmiz olmadan xarici maşın necə girə bilər ora. Bir də əgər kimsə hesab edir ki, biz bunu görmürük, səhv edir. Bəzi hallarda o maşınlara erməni nömrələri yapışdırılır. Ancaq biz oradayıq, biz dəhlizdəyik. Biz hər şeyi görürük, Xankəndini də, dəhlizi də. Ona görə buna da son qoyulmalıdır. Oradan gündəlik çıxan maşınların sayı girən maşınlardan xeyli çoxdur. 25 min insan üçün status yaratmaq hansı məntiqə sığır?”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

**İsmayıl**



## Ceyhun Bayramov Aİ-nin Azərbaycandakı nümayəndəsi ilə görüşüb

### Tərəfdaşlıq ölkələrinin qarşıdan gələn yüksək səviyyəli görüşünə hazırlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəsi səfir Kestudis Yankauskası ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir Ceyhun Bayramov səfir Kestudis Yankauskasın ölkəmizdə Aİ-nin nümayəndəsi qismində çalışdığı müddətində peşəkar, məqsədyönlü və uğurlu fəaliyyətini vurğulayıb, Azərbaycan və Aİ arasında münasibətlərin inkişafına verdiyi töhfəyə görə ona təşəkkürünü bildirib.

Səfir Kestudis Yankauskas fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib. O, Aİ-nin bölgənin sülh və dostluq şəraitində inkişaf etməsində maraqlı olduğunu qeyd edib. Aİ-Azərbaycan tərəfdaşlığında yeni əməkdaşlıq imkanlarından faydalanmağın əhəmiyyətini vurğulayıb.

Görüşdə tərəflər, həmçinin Aİ ilə bağlı baş verən ən son hadisələr, o cümlədən son ay ərzində Azərbaycan həyata keçirilən yüksək səviyyəli səfərlər, eləcə də əməkdaşlıq perspektivləri, Şərq Tərəfdaşlığı ölkələrinin qarşıdan gələn yüksək səviyyəli görüşünə hazırlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıb.

Nazir Ceyhun Bayramov səfir Kestudis Yankauskasa gələcək fəaliyyətində uğurlar arzulayıb.

## Koronavirusa daha 212 nəfər yoluxub

### 92 nəfər sağalıb, 1 nəfər vəfat edib



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 212 yeni yoluxma faktı qeydə alınıb, 92 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan “Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 339274 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 331629 nəfər müalicə olunaraq sağalıb, 4999 nəfər vəfat edib, aktiv xəstə sayı 2646 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7655, ötən müddət ərzində isə ümumilikdə 3943568 test aparılıb.

# Putin İlham Əliyevin fikirlərini dəstəklədi

## İndi nə "Dağlıq Qarabağ" termini qalıb, nə də "münaqişə" ifadəsi



Putinin dəvəti ilə Moskvaya gedən Prezident İlham Əliyev rusiyalı həmkarıyla təkbətək görüş keçirib. Heç bir yeni sənədin imzalanmadığı görüşdə diqqət çəkən bəzi məqamlar oldu. Bunu Rusiya prezidentinin Paşinyanla görüşü zamanı da müşahidə etdik. Putin həm İlham Əliyev, həm də Paşinyanla görüşü zamanı "Dağlıq Qarabağ problemi" ifadəsini işlətmədi.

**Məlum görüşün pərdəarxası məqamları barədə "Şərq"ə danışan siyasi elmlər doktoru, professor, politoloq Cümşüd Nuriyev vurğulayıb ki, ölkə başçımızın Rusiyaya səfərləri daha çox dövlətimizə lazım olan anlarda həyata keçirilir:**

"Fikrimcə, bu təcili görüşün keçirilməsi daha çox Fransanın BMT Təhlükəsizlik Şurasının üzvü kimi yeni bir qətnamə layihəsi hazırlaması ilə bağlıdır. Çünki Fransa təklif edir ki, Azərbaycanla Ermənistan arasındakı hər iki bəyanat ləğv olunsun, fransız ordusu Laçın dəhlizində yerləşsin. Təbii ki, bütün bunlar əvvəlcədən razılaşdırılmasa, çox ciddi ziyanlara səbəb ola bilər.

### "Son 2-3 gün ərzində rus mətbuatında Azərbaycanı dəstəkləyən yazılar daha çoxdur"

Məlumdur ki, Rusiya da BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Azərbaycanın da fəaliyyətə keçməsi bununla bağlıdır. Fransanın həmin qətnaməsinin qəbul edilməməsi üçün Rusiya ilə bərabər Azərbaycan da fəaliyyətə keçəcək. Lakin bunun baş tutacağına inanmıram. Çünki Azərbaycan-İngiltərə münasibətləri yüksək səviyyədədir. Yəni Rusiya ilə Azərbaycan arasındakı danışıqlar masasında olan məsələlərdən birincisi budur".

**C.Nuriyev qeyd edib ki, görüşdə hər iki tərəf mühüm bəyanatlar verdi:**

"İlham Əliyev artıq "münaqişədən sonrakı dövr" terminini işlətdi. Rusiya prezidenti də buna etiraz etmədi. O deməkdir ki, münaqişənin başa çatması və Prezidentimizin bəyanatı artıq qəbul olundu. Eyni zamanda "Dağlıq Qarabağ" adında inzibati ərazi vahidi yoxdur və Azərbaycan münaqişəni həll edib. Putinin Əliyevin fikirlərini dəstəkləməsi və həm "Dağlıq Qarabağ", həm də "münaqişə" terminini işlətməməsi Azərbaycanın bu istiqamətdə apardığı xarici siyasətin müsbət nəticəsidir.

Rusiya ilə Azərbaycan arasında ticarət əlaqələri də möhkəmlənir. Təbii ki, bu, dövlətimiz üçün lazımdır. Azərbaycan kənd təsərrüfatı məhsullarının Rusiya kimi böyük bir bazara ehtiyacı var. Ona görə bu sahədə işlərin görülməsi müsbət nəticəsini verəcək.

Nə Rusiya, nə də biz köçüb gedənik. Taleyimiz belədir ki, Rusiya ilə qonşuyuq, ən azı qonşuluq münasibətlərinə əməl etməklə sıfır problem siyasətini həyata keçirməliyik. Cənab Prezident də buna çalışır. Rusiyada aparılan təbliğat onu göstərir ki, onlar artıq Prezident Aparatından Azərbaycan əleyhinə işləməmək haqqında göstəriş alıblar. Son 2-3 gün ərzində rus mətbuatında Azərbaycanı dəstəkləyən yazılar daha çoxdur".

**Yeganə Bayramova**





## Mətbuat nümayəndələri ulu öndərin məzarını ziyarət ediblər

**İyulun 22-də milli mətbuatımızın 146 illiyi və Mətbuat Günü münasibətilə Medianın İnkişafı Agentliyinin, Azərbaycan Mətbuat Şurasının, Milli Televiziya və Radio Şurasının nümayəndələri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və görkəmli həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri qoyulub.

*Sonra Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı önünə əklil qoyulub, böyük mütəfəkkirin xatirəsi anılıb.*

## Baş nazir qərar imzalayıb

### Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

**Azərbaycanda xüsusi karantin rejiminin müddəti sentyabrın 1-dək uzadılıb.**

Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

*Qeyd edək ki, xüsusi karantin rejiminin müddəti avqustun 1-də başa çatırdı.*

# Böyük və şərəfli yol...

## MEDİA "Milli Mətbuat Günü-146 il" adlı tədbir keçirib

Dünən Dənizkənarı Milli Parkda Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Milli Mətbuat və Jurnalistika Gününə həsr olunan tədbir keçirilib. "Şərq"in məlumatına görə, tədbirdə əvvəlcə Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra qalib ölkənin mediasını özündə əks etdirən "Milli Mətbuat Günü-146 il" adlı video-çarx nümayiş olunub.

**Tədbirdə çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, 146 illik Azərbaycan mətbuatı böyük və şərəfli inkişaf yolu keçib, bütün dövrlərdə qabaqcıl ictimai ideyaların carçısı olub.** Ə.İsmayılov jurnalistlərdən agentliyi dəstəkləməyi xahiş edib: "Bütün layihələrdə təkliflərə açığıq. Ali Baş Komandanın rəhbərliyi altında biz qələbəni qazandıq. Biz qələbənin carçılarıyıq. Çox xahiş edirəm, bu tempi saxlamaqda bizə kömək edəsiniz".

**Mətbuat Şurasının sədri Əflatun Amaşov isə çıxışında vurğulayıb ki, 1875-ci il iyulun 22-də Həsən bəy Zərdabi "Əkinçi" qəzetini nəşr etdirməklə xalqı maarifləndirmək, onu dünyada baş verən ictimai-siyasi, mədəni, iqtisadi inkişafla tanış etmək məqsədini qarşıya qoyub.** Əflatun Amaşov bildirib ki, hər bir xalqın həyatında onun mediası böyük rol oynayır: "Əkinçi" qəzeti də Azərbaycan mediasının, mətbuatının əsasını qoyub. Azərbaycan mediası uzun, keşməkeşli yoldan keçib, bununla belə hər zaman xalqın yanında olub. 30 ildir ki, jurnalistlər mübarizə aparırdılar, milli- vətənpərvərlik mövzusunun işıqlandırılmasında medianın rolu danılmazdır. Eyni zamanda, Qarabağ savaşında jurnalistlərimiz qələmi silaha çevirməyi bacardılar".






*MŞ sədri MEDİA-nın fəaliyyətindən danışıb və bildirib ki, son proseslər uğurlu nəticələrə gətirib çıxaracaq:* "Son dövrlərdə hətta jurnalist vəsiqələri məsələsi də gündəmə gəlib. Bilin ki, bu islahatlar Türkiyədə və digər ölkələrdə də tətbiq olunub. Bunun bizim ölkəmizdə də uğurla həyata keçiriləcəyinə əminəm".

**MTRŞ-nin Aparat rəhbəri Fazil Novruzov qeyd edib ki, son dövrlər media sahəsində islahatların dərinləşdirilməsi gündəmə gəlib:** "Bunun nəticəsində Medianın İnkişafı Agentliyi yaradıldı. MEDİA-nın yaradılmasından çox müddət keçməsə də, onların fəaliyyətini fədakarlıq kimi qiymətləndirirəm. Onlar bütün media nümayəndələri ilə görüşlər keçirməyə çalışırlar. Biz də MTRŞ olaraq MEDİA ilə əməkdaşlıq edirik".

F.Novruzov Kəlbəcərdə minaya düşərək həlak olan jurnalistlərin də xatirəsini yad edib və qeyd edib ki, onların fəaliyyətini bu gün anmamaq mümkün deyil.

Sonra MEDİA Agentliyi və İctimai Televiziya və Radio Yayımları Şirkətinin birgə hazırladığı "Əkinçinin doğru sözü" adlı sənədli filminin treyleri nümayiş olunub. İctimai Televiziya və Radio Yayımları Şirkətinin Baş Direktor müavini Murad Hüseynov tədbir iştirakçılarına film haqqında məlumat verib.

**Tədbirdə Media Agentliyinin şöbə müdiri Natiq Məmmədli "Mətbuat inciləri" jurnalının təqdimatını da edib.** Həmçinin MEDİA tərəfindən təşkil olunan fərdi jurnalist müsabiqəsi haqqında məlumatlar qonaqların diqqətinə çatdırılıb. Qeyd edək ki, müsabiqə qalibləri arasında "Şərq"in əməkdaşı Samirə Ərəblinski də var. Əməkdaşımız "ən yaxşı jurnalist araşdırması" nominasiyası üzrə təqdim etdiyi yazıya görə mükafatlandırılıb.

"Mətbuat inciləri" jurnalına həsr olunan video-çarxın nümayişindən sonra tədbir iştirakçıları Azərbaycan mətbuat tarixinin müəyyən dövrlərini əks etdirən qəzetlərdən ibarət sərgiylə tanış olublar.

**İsmayıl**

# Paşinyan və onun havadarları bilməlidir



## Azərbaycan müəyyən kompromislərə gedə bilər, ancaq status məsələsindən söz gedə bilməz

**Siyasi şərhçi Asif Nərimanlı feysbuk hesabında qeyd edib ki, Ağdamdan sonra Şuşaya açılan atəş mövqe toqquşmasının davamı hesab oluna bilər:**

"Bunun Rusiya baş nazirinin müavini Aleksey Overçukun Bakı səfərinin ardınca baş verməsi də kommunikasiyanın bərpası ilə bağlı məsələlərdə də maraqların toqquşmasından xəbər verir. Qarabağa paralel olaraq, Naxçıvanla sərhəddə atəşkəsin pozulması nədir? 44 günlük müharibənin həlledici məqamında Naxçıvanla sərhəddə təyyarə böhranı necə və niyə yaradılmışdısa, indi muxtar respublika istiqamətindəki hücum da eyni məqsədlə törədilir. Qarabağda müharibədən sonra növbəti həlledici mərhələnin başladığını və bu təxribatın hədəfinin prosesi yönləndirmək olduğunu deyə bilərik. Dövlət başçısı İlham Əliyevin Xankəndi, Xocalı və Xocavəndlə bağlı fərmanı kulis mübarizəsini açıq müstəviyə keçirir".

**Məsələyə münasibət bildirən siyasi analitik Turab Rzayev "Şərq"ə verdiyi açıqlamada deyib ki, Azərbaycanın Qarabağın sülhməramlıların nəzarətində olan hissələri barədə mövqeyi bəllidir:**

"Harada ki, Rusiya sülhməramlıları müvəqqəti olaraq həmin əraziyə nəzarəti həyata keçirirlər, bu ərazilərə Xocavənd, Xocalı və Xankəndi daxildir. Həmin ərazilər Azərbaycanın tərkib hissəsidir. Bununla bağlı qərarlarımız dəqiqdir. Burada status və ya başqa inzibati ərazi vahidinin formalaşmasına və ya iradəmizdən kənar situasiyanın yaranmasına icazə verməyəcəyik. Sülhməramlıların bölgədə qalmaq müddəti bəllidir. Artıq 4 il yarımdan az vaxtları qalıb. Bu vaxt ərzində həmin ərazidəki ermənilər tamamilə tərksilah edilməli, qalan ermənilər isə Azərbaycan vətəndaşı kimi dövlətimizin uyğun gördüyü inzibati-siyasi formasiyada həyatlarını davam etdirməlidirlər. Bununla bağlı mövqeyimizi bir neçə xarici ölkələrdə də bildirmişik. Ən son ölkə başçısının Moskva səfərində baxmayaraq ki, Putin çıxışında bir neçə dəfə "kompromis" sözünü işlətdi və bölgədə sülh və əməkdaşlığın davamı üçün kompromisin gərəkli olduğunu dedi. İlham Əliyev isə açıq şəkildə 3 dəfə münaqişənin bitməsi barədə eyham vurdu və bildirdi ki, bizim üçün münaqişə bitib!. Münaqişə bitdiyi dövrdə heç bir status məsələsi razılaşdırılmayıb və ola da bilməz. Bundan başqa, bölgədəki erməni silahlı qüvvələrinin tamamilə tərksilah edilməsini gözləyirik. Sonra isə Paşinyan açıqlama verdi ki, sülh sazişinin imzalanmasına hazırdır. Ancaq istər Paşinyan, istərsə də onun havadarları bilməlidirlər ki, Azərbaycan müəyyən kompromislərə gedə bilər. Lakin burada heç vaxt status məsələsi gündəmə belə gətirilə bilməz".

**Yeganə Bayramova**

# Sabitliyin alternativi yoxdur

## Ermənistan da sülh danışıqlarına hazır olduğunu təsdiqləyir



**Ermənistanda Baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyan ölkəsinin Azərbaycanla sülh danışıqlarına başlamağa hazır olduğunu təsdiqləyib. O, bu barədə hökumətin iclasında bildirib: "Sülh və sabitliyin alternativi yoxdur. Ermənistan hökuməti bölgə üçün dinc inkişaf dövrü açmaq vəzifəsini yerinə yetirməyə qərarlıdır".**

*Paşinyanın ifadələrini "Şərq"ə dəyərləndirən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov bildirib ki, Ermənistan baş nazirinin səsləndirdiyi bu fikrin təsadüfi olduğunu düşünmək olmaz.* Analitikin fikrincə, regionda son dövrlərdə baş verən prosesləri izlərkən vəziyyətin nədən ibarət olduğunu asanlıqla anlamaq mümkündür: "Paşinyanın Moskvaya səfəri və orada Rusiya Prezidenti Vladimir Putinlə aparılan danışıqlar, daha sonra ABŞ baş katibi Entoni Blinkenin Paşinyanla telefon danışığı, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin bölgəyə səfəri, verilən açıqlamalar, Ermənistana dəfələrlə sülh danışıqlarının təklif edilməsi birbiri ilə əlaqəli proseslərdir. Nəhayət, Azərbaycan Prezidenti İlham Əliyevin Moskvaya səfəri və Vladimir Putinlə keçirdiyi görüş və apardığı danışıqlar hadisələrin ardıcıllığını ortaya qoyur".

**S.Hümbətov vurğulayıb ki, bundan sonrakı mərhələdə Ermənistan tərəfindən bu tipli açıqlamaların gəlməsi gözləniləndir:** "Əlbəttə, sülh danışıqları uzunmüddətli proseslərin nəticəsi olaraq baş tutur. Həmçinin, tərəflərdə güclü siyasi iradə və uzaqgörən siyasət də tələb edir. Azərbaycan buna hazır olması barədə dəfələrlə bəyanat verib. Azərbaycan qoyulan şərtlərin yerinə yetirilməsi qarşılığında qısa müddətdə proseslərin başlanmasına təkan verə bilər".

**İsmayıl**

# Diplomatiya böhranı...

## Paşinyan qarşıdakı dövrdə ikili siyasət oyununu davam etdirəcək

Ermənistanda son günlərin ən çox müzakirə olunan mövzularından biri xarici siyasətlə bağlı fundamental dəyişikliklərin baş verməsidir. Maraqlıdır ki, erməni siyasətçilər, politoloqlar ölkənin başsız qalan diplomatiyasının təhlükəli mərhələyə keçdiyini bildirirlər. Yerli mediada bu barədə tez-tez təhlillər yazılır, siyasi ekspertlərin pessimist ruhlu proqnozları dərc edilir.

Məsələn, "Fakt" qəzetində gedən bir məqalədə Qərbin artıq Ermənistanda yalnız diplomatiyanı ələ keçirməyə çalışması deyil, həm də anti-Rusiya ab-havası yarada bilməsinə işarə vurulub. Qəzet iddia edib ki, Ermənistanda fəaliyyət göstərən Qərbin maliyyələşdirdiyi siyasi dairələr anti-Rusiya kampaniyasında əsas açar rolunu oynayırlar. Bəs gələcəkdə Qərb Ermənistan ərazisindən Rusiyaya zərbə vuracaqmı? Bu nə dərəcədə realdır?

**Suallarımızı cavablandıran siyasi-şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında vurğulayıb ki, Ermənistanın xarici siyasəti may ayında Ayvazyanın istefasından sonra başsız qalıb.** O qeyd edib ki, yeni nazirin təyin olunmaması isə daxili böhrandan irəli gəlir: "Lakin təbii ki, burada başqa səbəblər də mövcuddur. Qeyd edim ki, diplomatik korpusda Paşinyan hakimiyyətinin əleyhinə olan kadrlar var. Xüsusilə Avropa ölkələrindəki səfirliklərin əməkdaşlarının rəsmi İrəvanın siyasətini dəstəkləmədiyi haqda məlumatlar da olmaqdadır. Ayvazyanın istefadan öncə yeni təyin etdiyi 10-a yaxın diplomatın təyinatının ləğvi də bundan qaynaqlanırdı. Görünür, Paşinyan başsız qalan xarici siyasətdə mövqeləri aydınlaşdırmaq, təmizləmə prosesini həyata keçirmək niyyətindədir. Digər səbəb Ermənistanın xarici siyasət prioritetlərinin dəyişməsidir. Artıq Qarabağ məsələsi bitib, bunu etiraf etməsələr də, İrəvanda anlayırlar. Bu baxımdan, xarici siyasət idarəsinin önündə böyük məsələlər artıq yoxdur. Burada Armen Qriqoryanın Təhlükəsizlik Şurasının katibi vəzifəsindən azad edilərək, Xarici İşlər Nazirliyinə müavini gətirilməsi diqqət çəkir. Qriqoryan inqilab zamanı Paşinyanın PR meneceri rolunu oynayırdı, yəni onun profili nə Təhlükəsizlik Şurasının katibi, nə də xarici işlər naziridir. Bu şəxs Qərbpərəstdir və Rusiya tərəfindən də qəbul edilmir".

> Qərbin Ermənistan ərazisindən Rusiyaya ciddi zərbələr vuracağı gözləntisi zəifdir

*Analitik bəyan edib ki, hazırda Ermənistan-Rusiya münasibətlərini xarici siyasət idarəsindən daha çox, hərbi qurumlar tənzimləyir və müdafiə naziri postundan çıxarılan Vaqraşak Arutyunyanın məhz Təhlükəsizlik Şurasının katibi postuna gətiriləcəyi istisna deyil:*

"Çünki Rusiya ilə yaxın münasibətləri olan Arutyunyanın İrəvan-Moskva xəttində de-fakto əlaqələndirici rolunu oynayacağı gözlənilir. Paşinyan Qriqoryanı TŞ-nin katibi postundan çıxarmaqla Rusiyanın istəyini yerinə yetirir. Buna paralel olaraq, Xarici İşlər Nazirliyinə gətirməsi gələcək addımlarını anlamağa imkan verir. Birincisi, Qriqoryanın bu posta gətirilməsi erməni diasporu ilə İrəvan hakimiyyətinin əlaqələrinin yaxşılaşdırılması məqsədi daşıyır, xüsusilə diasporda gənc nəslin dəstəyinin əldə edilməsidir. Müharibə və sonrakı dövrdə Paşinyan-diaspor əlaqələri ciddi şəkildə zədələnib. İkincisi, Qriqoryanı



Təhlükəsizlik Şurasının katibi postundan çıxaran Paşinyan Rusiyaya jest etdiyi kimi, onu Xarici İşlər Nazirliyinə müavin gətirməklə Qərbə də jest edir. Bu, Ermənistanın xarici siyasətdə Qərblə yaxınlaşacağının işarəsi olaraq da qəbul edilə bilər. Məlumatlar var ki, Qriqoryan yeni nazir təyin olunacaq. Lakin rusların etirazını nəzərə alsaq, fikrimcə, o, müavin postunda öz missiyasını yerinə yetirə, nazir postuna isə Rusiyanın da qəbul edilecəyi şəxs gətirilə bilər. Buna baxmayaraq, xarici siyasət idarəsinin artıq Qərbyönümlü missiyanı yerinə yetirəcəyini düşünürəm. Və istisna deyil ki, Ermənistanda anti-Rusiya kampaniyasının idarəedilməsi də Qriqoryana həvalə edilsin. Qeyd etdiyim kimi, bu şəxs PR menecer olub və onun ən yaxşı bacardığı iş də kampaniyaların təşkil edilməsidir. Lakin Qərbin Ermənistan ərazisindən Rusiyaya ciddi zərbələr vuracağı gözləntisi zəifdir, qarşıdakı dövrdə biz Paşinyan hakimiyyətinin ikili oynayacağını görə bilərik. Həm hərbi dairələr üzərindən Rusiya ilə münasibətləri saxlayacaq, həm də siyasi dairələr üzərindən anti-Rusiya əhval-ruhiyyəsini gücləndirəcək".

**Aynurə Pənahqızı**

# Prezident şəhid jurnalistlərimizin ailələrinə mənzil hədiyyə etdi



## İlham Tumas: “Dövlətimizin yürütdüyü siyasət olduqca təqdirəlayiqdir”

**22 iyul - Milli Mətbuat günündə Prezident İlham Əliyev iki şəhid jurnalistin - AzərTAC-ın əməkdaşı İbrahimov Məhərrəm Əli oğlunun və AzTV-nin operatoru Abışov Sirac Abış oğlunun ailələrinə mənzillər hədiyyə edib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev şəhid jurnalistlərin ailələrini ziyarət edərək, mənzillərin sənədlərini, həmçinin şəhid ailəsi vəsiqəsini və onlara təyin olunmuş sosial ödənişlərin kartlarını təqdim edib. Nazir bildirib ki, Prezident İlham Əliyevin 14 iyun 2021-ci il tarixli Sərəncamı ilə hər iki şəhid jurnalistimiz 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə də təltif edilib. Bu gün isə dövlət başçısının tapşırığına əsasən, şəhidlərimizin yaşadıqları əraziyə yaxın məsafədə (Sumqayıt şəhərində və Bakının Xocasən qəsəbəsində) yerləşən yaşayış komplekslərindən mənzillərin sənədləri təqdim edilir. Eyni zamanda, M.İbrahimov və S.Abışova şəhid statusu verilib və onların ailə üzvlərinə şəhid ailələri üçün nəzərdə tutulan sosial ödənişlər təyin olunub.

**Ehtiyatda olan zabit, qazi İlham Tumas ”Şərq”ə açıqlamasında Prezident İlham Əliyevin bu addımını yüksək dəyərləndirib. O qeyd edib ki, dövlətimizin yürütdüyü siyasət olduqca təqdirəlayiqdir. Bunun üçün Ali Baş Komandanımıza təşəkkürlərimizi bildiririk:** ”Bir neçə gün bundan öncə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin jurnalistlərlə görüşü oldu. Sahil müəllim görüşdə bildirmişdi ki, çox qısa zamanda hamınızı sevindirəcəyik. Bizim jurnalist qardaşlarımızın ailələrinə evin verilməsi və şəhid ailələri üçün nəzərdə tutulan sosial ödənişlərin onlar üçün də təyin olunması çox təqdirəlayiqdir. Bilirsiniz ki, onlar öz vəzifə borclarını yerinə yetirərkən şəhid oldular. Cənab Prezidentimiz tərəfindən atılan bu addım böyükdür. Çünki biz onlara nə etsək də azdır. Ruhları şad olsun”.

**Aynurə Pənahqızı**



# Kələkidə toydur

## Elçibəyin oğlu evlənir

**Azərbaycanın eks-prezidenti Əbülfəz Əliyevin (Elçibəy) oğlu Ərturqut Əliyev ailə həyatı qurur. O, Elçibəyin silahdaşlarından olan Mirhadı bəyin qızı Aytək xanımla evlənir.**

”Şərq” xəbər verir ki, bu barədə Bəyin kürəkəni Aqil Səmədbəyli məlumat yayıb.

O, Naxçıvanın Kələki kəndində baş tutan qız toyunun ”ciyər axşamı”ndan fotoları feysbuk profilində yerləşdirib.

A.Səmədbəyli iyulun 30-da oğlan toyunun olacağını söyləyib. O, həmçinin toyda karantin rejiminin qaydalarına əsasən 150 nəfər qonağın iştirak edəcəyini xüsusi vurğulayıb.

**Samirə**

# Riskə getməliyik!

## “...Azərbaycan Şimali Kiprin müstəqilliyini tanısın”



## “Bu, Azərbaycanın türk dünyasındakı mövqeyini gücləndirəcək”

**”Bizim bu addımı atmağımıza türklərin haqqı çatır. Qəribədir ki, demokratiyadan danışan Qərb özü ədalətsizlik edir və haqsızlığa göz yumur”. Bu sözləri Azərbaycanın Şimali Kiprin müstəqilliyini tanıması barədə ”Şərq”ə danışan politoloq Natiq Miri dedi.**

N.Mirinin fikrincə, biz Türkiyənin siyasətinə dəstək olmalıyıq: ”Beynəlxalq aləmdə yaranan geosiyasi vəziyyət imkan verir ki, Azərbaycan Şimali Kiprin müstəqilliyini tanısın. Hər halda bu, ciddi çətinliklərlə nəticələnməyəcək. Çünki biz torpaqlarımızı artıq azad etmişik. Həmçinin Qarabağ iqtisadi zonasının yaradılması da potensial təzyiqlərin qarşısını alır. Qarabağ problemi artıq bitib. Heç bir güc yeni reallığı dəyişə bilməz”.

*Politoloq, həmçinin deyib ki, adekvat addımlar uğursuz olacaq:* ”Bəzi ölkələr buna altenativ olaraq Qarabağın müstəqilliyini tanımağa cəhd edə bilərlər. Lakin bu, onların ədalətsiz və qeyri-ciddi dövlət olmalarından xəbər verəcək. Rusiyanın Abxaziyanın və Osetiyanın bir hissəsinin müstəqilliyini tanıması nəticə verdimi? Yox. Dünya birliyi buna məhəl qoymadı. Odur ki, riskli və strateji əhəmiyyətli addım atmağa ehtiyac var. Bu, Azərbaycanın türk dünyasındakı mövqeyini gücləndirəcək”.

**Kənan**

"Ermənistanda seçki ərəfəsində Paşinyanın rəqiblərinin müharibə ritorikası ilə danışması ona qarşı təzyiq vasitəsi rolunu oynayırdı". Bu barədə "Şərq"ə açıqlamasında politoloq Vasif Əfəndiyev deyib. Siyasi şərhçi bildirib ki, Koçaryan və onun tərəfdarları müharibəni uduzduqlarını və geriyə dönüşün mümkün olmadığını yaxşı bilsələr də, Kremlin göstərişi ilə Paşinyana siyasi təzyiq edirdilər:



# Görüşün nəticəsi gələn həftə tam aydın olacaq

## *“Qarabağ və sərhəddə provakasiyalar dayanarsa, deməк, Zəngəzur dəhlizinin açılması istiqamətində konkret qərar qəbul edilib”*

”Artıq seçki arxada qalıb. Parlamentdə yer qazanan Koçaryan deputat mandatından imtina etməsi barədə bəyanat verib. Bu da ondan irəli gəlir ki, indiyə qədər verdiyi bəyanatları davamlı olaraq parlament kürsüsündən səsləndirməyə məcbur olmasın. Koçaryan çox yaxşı anlayır ki, müqavimət göstərmək reallıq hissini itirməkdir. Hakimiyyəti ələ almış qüvvələrin sərhəd bölgələrimizi atəşə tutması və konfliktin alovlanmasına gətirib çıxara biləcək addımlar atması ilk növbədə Ermənistanın maraqlarına ziddir. Ermənistan hələ də 10 noyabr razılaşmasının bəndlərini həyata keçirmək istəmir, müqavimət göstərir. Seçkilərə qədər bunu müəyyən mənada anlamaq olardı. İndiki şəraitdə bu direniş Ermənistan üçün pis nəticələnə bilər”.

**Analitik bildirib ki, Fransa Prezidenti Makronun qızışdırıcı bəyanatları və hətta mütəmadi olaraq erməni dilində tvit atması Paşinyanı bir qədər ruhlandırıb:** ”Lakin bir nüansı unudurlar ki, konflikt yenidən alovlanarsa, Sədərəkdən İrəvana 50 km-lik məsafəni 4 saata qət edə bilərik. Paşinyan isə Makronun həyasız bəyanatlarından başqa heç bir dəstək görməyəcək. İndi dünyada gedən proseslərdə böyük və güclü dövlətlərin açıq döyüşlərdə iştirakdan imtina etdiyi reallıqdır. Fransızlar və ermənilərdən fərqli olaraq türk əsgəri dişi və dırnağı ilə döyüşə hazır olduğunu sübut etdi. Qarabağda Rusiya sülhməramlılarının nəzarət etdiyi ərazilərdə atəşkəsin pozulması və mövqelərimizin atəşə tutulmasında isə birbaşa Rusiya cabadehdir və məsuliyyət daşıyır. Azərbaycan və Rusiya prezidentlərinin görüşü başa çatıb. Görüşün nəticələri üzümüzə gələn həftə tam aydın olacaq. Qarabağ və sərhəddə provakasiyalar dayanarsa, demək, Zəngəzur dəhlizinin açılması istiqamətində konkret qərar qəbul edilib”.

**İsmayıl Qocayev**

# Ermənistanda nə ordu var, nə də normal hakimiyyət...

## *Buna görə NATO-nun təlimlərində iştirak edə bilmirlər*



**Ermənistan "ordusu"nun hərbçiləri Gürcüstanda iyulun 26-dan avqustun 6-dək keçiriləcək "Agile Spirit 2021" beynəlxalq hərbi təlimlərində iştirak etməyəcək.**

Nə qədər gülünc səslənsə də, bu barədə Ermənistanın Müdafiə Nazirliyi məlumat yayıb. Daxili auditoriyaya ünvanlanan bu xəbəri oxuyarkən ağla ilk olaraq bir sual gəlir: "Hansı ordu?" Məgər, Ermənistanın ordusu var, bizim xəbərimiz yoxdur?

Hər halda açıqlama verilərkən ağıldan istifadə olunmasa da, Ermənistan MN-in qərarı hansısa baxımdan məntiq çərçivəsinə sığır. Əks halda sadaladığımız şəxslərdən bir birlik təşkil edib Gürcüstana göndərmək, orada isə həmin şəxsləri NATO standartlarına "uyğunlaşdırmaq" müşkül məsələyə çevrilərdi...

Görünür, Ermənistan MN özünü növbəti rüsvayçılıqdan sığortalamaq üçün bu addımı atıb. Çünki müzəffər Azərbaycan Ordusunun da qatılacağı bir platformada "orducuq"la təmsil olunmağa başqa ad tapmaq çətindir!

**Mövzu barədə "Şərq"ə açıqlama verən hərbi ekspert Üzeyir Cəfərov söyləyib ki, dünyanın aparıcı ölkələri sözügedən təlimdə iştirak edəcək:**

"Ermənistanın təlimlərdə olmaması daha çox iqtisadi məsələlərlə bağlıdır. Çünki Ermənistan bir dövlət kimi özünə gəlməli, silahlı qüvvələrini normal səviyyəyə çatdırmalıdır. Çünki 2020-ci ildə biabırçı bir məğlubiyyətlə üzləşiblər, bütün dünyanın gözü qarşısında darmadağın olduqlarının fərqindədir. Ona görə də bu təlimlərə qatılmayıblar. İlk dəfədir ki, NATO-nun üzvü olan ölkələr belə möhtəşəm təlimlər keçirir. Sözügedən təlimlərdə Azərbaycan da iştirak edir. Ümumiyyətlə, 2021-ci və növbəti illərdə belə təlimlərin daha çox şahidi olacağıq".

**Ü.Cəfərovun sözlərinə görə, Azərbaycan yaxın aylarda bir sıra ciddi təlimdə iştirak edəcək:** "Sentyabr ayında Bakıda Azərbaycan-Türkiyə-Pakistan xüsusi təyinatlılarının dağ şəraitində təlimi keçiriləcək. Ermənistanın NATO təlimlərinə qatılmamasına gəlincə, orada xaos davam edir. Nə hökuməti formalaşdıra, nə də ordularını normal vəziyyətə gətirə bilirlər. Bu nöqteyi-nəzərdən NATO-nun təlimlərində iştirak etməyəcəklər. Bu da başa düşüləndir, yəni hansı üzlə gəlib təlimə qoşulsunlar? Ümumiyyətlə, nələri var ki, təlimdə nə göstərsinlər? Ağır müharibədən çıxmış ölkələr ən azı 10 il ərzində öz ordusunu ayaq üstdə saxlamağa çalışırlar. Onların bu gün atəşkəsi pozmaqlarına baxmayaraq, real gücləri yoxdur. Azərbaycan daha bir həmlə etsə, 1-2 günə İrəvanda otura bilərik. Çünki Ermənistan ordusunun gücü yoxdur. Gücü olmayan ordu isə belə beynəlxalq əhəmiyyətli təlimdə iştirak edə bilməz. Çətin durumları hələ çox davam edəcək".

**Yeganə Bayramova**



# İşlər gedir

## Zəngəzur dəhlizi açılacaq

**Məlum olduğu kimi, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev artıq tarixi Azərbaycan torpaqları olan Qərbi Zəngəzur məsələsini gündəmə gətirib.**

Ermənistan bu mesajdan nəticə çıxarmalıdır. Və görünür, artıq "güllə hədəfə dəyib". Belə ki, Ermənistan müxalifətinin liderlərindən biri olan Vazgen Manukyan açıqlamalarının birində deyib: "Zəngəzur isə təkcə Azərbaycan yox, bütün türkdilli xalqlar üçün strateji bir məsələdir. Əsas məqsəd də, məhz Zəngəzurun geri qaytarılmasıdır". Əslində Zəngəzurun onların torpağı olmadığını özləri də etiraf edirlər.

**Millət vəkili Fazil Mustafa "Şərq"ə açıqlamasında bildirib ki, Zəngəzur dəhlizi mütləq açılacaq:** "Biz Ermənistanın sərhədlərini tanıyırıq. Laçında ermənilərə yol verdiyimiz kimi, Naxçıvan və Zəngəzurdan da dəhliz istəyirik. Bu, üçtərəfli razılaşmada da öz əksini tapıb. Hazırda Zəngəzur dəhlizinin açılması üçün hərtərəfli işlər gedir".

**Kənan**

# Sərhədlərin demarkasiyası ləngiyir

## "Yalnız yekun sülh müqaviləsi imzalanandan sonra məsələ tam həllini tapa bilər"



**Millət vəkili Nizami Cəfərov sərhədlərin delimitasiyası və demarkasiyası barədə danışıb. O bildirib ki, hazırkı mərhələdə sözügedən məsələ bizim prioritetimizdir:**

"Azərbaycan Respublikasının Ermənistanla olan dövlət sərhədinin bərpası istiqamətində atdığı bütün addımlar beynəlxalq hüquqa əsaslanır və beynəlxalq təcrübəyə də tamamilə uyğundur.

Bu baxımdan qeyd edilən məsələnin həllində Ermənistanın beynəlxalq hüquqi çərçivədən kənara çıxmaması üçün təkcə Azərbaycan deyil, həmçinin beynəlxalq birlik, beynəlxalq təşkilatlar və ayrı-ayrı dövlətlər zəruri səy göstərməlidir".

**Keçmiş baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn "Şərq"ə açıqlamasında prosesin ləngicrasının səbəblərini açıqlayıb:** "Bu, təəccüblü deyil. Məsələnin həm texniki, həm də hərbi-siyasi tərəfləri var. İş orasındadır ki, Ermənistan SSRİ dövründəki inzibati sərhədləri qəbul etmək istəmir. Həmçinin ərazi iddialarını davam etdirir və təcavüzkar siyasətindən əl çəkmir. Bu mənada yalnız yekun sülh müqaviləsi imzalanandan sonra məsələ tam həllini tapa bilər".

**Kənan**

# Bölgəyə yeni nizam, yeni düzən gəlir

## Azərbaycan NATO-nun təlimlərində qalib ölkə kimi iştirak edir



**Gürcüstanda ABŞ-la birgə "Agile Spirit 2021" ("Çevik ruh") çoxmillətli hərbi təlimlər keçiriləcək. İyulun 26-da start götürəcək təlimlər avqustun 6-dək davam edəcək.**

ABŞ ordusunun Mətbuat xidmətinin məlumatına əsasən, hərbi manevrlərdə 15 müttəfiq və tərəfdaş ölkə - Gürcüstan, Estoniya, Almaniya, Latviya, Litva, Polşa, Rumıniya, İspaniya, Türkiyə, Ukrayna, Böyük Britaniya, ABŞ, Kanada, İtaliya və Azərbaycandan 2 500-ə yaxın hərbi heyət iştirak edəcək. Təlimlərin keçirilməsində məqsəd ABŞ, Gürcüstan, müttəfiqlər və regional tərəfdaşların hərbi qüvvələrinin hazırlığının və qarşılıqlı fəaliyyət səviyyəsinin yüksəldilməsidir. "Agile Spirit 2021" təlimləri komanda-qərargah, çöl şəraitində keçiriləcək və batalyonlar səviyyəsində atış tapşırıqları icra olunacaq. Təlimlərdə iştirak edəcək ABŞ texnikası artıq Gürcüstana çatdırılıb.

**Mövzu ilə bağlı politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında qeyd edib ki, bu təlim Cənubi Qafqazda gedən mürəkkəb geo proseslər fonunda həyata keçirilir.** Politoloq bildirib ki, ölkəmizin bu təlimdə iştirakı onu göstərir ki, Azərbaycan konkret olaraq Alyansla və Qərblə əlaqələrin inkişaf etdirilməsində maraqlıdır: "Xüsusilə postmünaqişə dövründə bu prosesin yeni mərhələyə keçməsi təbii ki, Azərbaycanın manevr imkanlarını daha da genişləndirir. Qeyd edim ki, Rusiya ilə Qərb qarşıdurmasında Azərbaycanın mövqeyi və Cənubi Qafqazda önəmi artıq yeni bir xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bu təlimlər regionda ümumi təhlükəsizlik, region ölkələrinin NATO ilə sıx əməkdaşlığı, regionda xarici təcavüzə qarşı ümumi bir səfərbərlik, həmçinin NATO-nun regionda öz geosiyasi maraqlarını təmin edəcək bir fonda həyata keçirilir. Düşünürəm ki, Azərbaycan NATO ilə əlaqələrini bundan sonra daha da irəli verəcək. Həmçinin, Azərbaycanın NATO ilə əməkdaşlığı əvvəlki illərdən fərqli olaraq təlimlərlə yüksək inkişaf mərhələsinə çıxacaq. Çünki NATO Şərqə genişlənir. Və o, ümumi təhlükəsizlik fonunda, kiber təhlükəsizlik, terrorizmə qarşı mübarizə, separatizmə və işğala qarşı ümumi bir həmrəylik təşkilatı kimi xarakterizə olunur. Azərbaycanın da indiki situasiyada ittifaqla əlaqələrini bu səviyyədə qaldırması təbii ki, ölkəmizin milli təhlükəsizliyi baxımından xüsusi əhəmiyyətə malikdir".

*M.Əsədullazadə əlavə edib ki, Gürcüstanda ABŞ-la birgə NATO-nun "Agile Spirit 2021" çoxmillətli hərbi təlimlər keçirilməsi regionda Qarabağ müharibəsindən sonra, yeni bir siyasi-hərbi müstəviyə keçid kimi də xarakterizə etmək olar:*

"Bu kimi təlimlər 2011-ci ildən keçirilsə də, regionda əhəmiyyətli bir dönüşə imza atmayıb. Çünki regionda ümumi əməkdaşlığı ləngidən Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycanın ərazilərinin 20 faiz işğalda saxlaması olub. Azərbaycanın Ermənistan üzərində hərbi qələbəsi və ərazilərini işğaldan azad etməsi, Cənubi Qafqazda yeni bir rəqabətin yaranmasına gətirib çıxardı. Azərbaycan da qalib ölkə kimi bu təlimlərdə iştirak edəcək. Ölkəmizin bu kimi təlimlərdə iştirakı NATO və ABŞ -la hərbi-texniki əməkdaşlığı yeni bir müstəviyə qaldıracaq. Ölkəmizin regionda mövqelərini yüksəldəcək. Belə təlimlərin Azərbaycanda da keçirilməsi mümkün ola bilər. Hesab edirəm ki, bu təlimlər Xəzər hövzəsində Azərbaycana qarşı mümkün riskləri neytrallaşdıra bilər. Təbii ki, Türkiyənin moderatorluğu ilə NATO təlimlərinin ölkəmizdə keçirilməsi Azərbaycanın təhlükəsizliyinin güclənməsinə xidmət edə bilər. Azərbaycan NATO və ABŞ-la hərbi əməkdaşlığı inkişaf etdirəcəksə, Azərbaycana hərbi texniki dəstək veriləcək. Ermənistanın NATO-nun bu təlimlərinə qatılmaması əsasən, Rusiyanın icazəsi ilə baş tutmur. Ən vacib məqam isə, müharibədə məğlub və darmadağın olmuş bir ordunun belə bir təlimlərdə hansı məqsədlə, həmçinin qalib Azərbaycan əsgəri ilə birgə yanaşı olması Ermənistan üçün gülünc durumdur. Məhz bu səbəbdən də Ermənistan bu təlimlərdə iştirak etmədi".

**Aynurə Pənahqızı**

# Ortada başqa mövzu var

## Paşinyan hazırda Fransanın dili ilə danışmağa başlayıb



**“Söhbət konkret ondan gedir ki, Fransa və Avropa İttifaqı Qarabağ münaqişəsindən istifadə edib bölgəyə daxil olmaq istəyir”**

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkəsinin Azərbaycanla sülh danışıqlarına başlamağa hazır olduğunu təsdiqləyib. Bu barədə o, hökumətin iclasında bildirib.**

”Sülh və sabitliyin alternativi yoxdur. Ermənistan hökuməti bölgə üçün dinc inkişaf dövrü açmaq vəzifəsini yerinə yetirməyə qərarlıdır”, - deyə Paşinyan vurğulayıb.

Bəzi şərhçilər Paşinyanın Moskvada Azərbaycan və Rusiya prezidentlərinin görüşündən sonra məhz belə qənaətə gəldiyini iddia edirlər.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli Paşinyanın məlum bəyanatını ”Şərq”ə şərh edib.** Onun sözlərinə görə, Paşinyanın sülh danışıqları ilə bağlı dediyi vergüldən sonrakı mələlədir: ”Amma vergüldən qabaq yenə də Azərbaycanı demarkasiya və əsirlərlə bağlı mövzuda eyni ritorika ilə ittiham edirdi. Hansı ki, əlimizdə onların əsirlərindən başqa terrorçular da var. Həmçinin Paşinyanın Qarabağın statusu ilə bağlı dediyi məsələ də var idi. Bütün bunlar bütövlükdə Azərbaycanın fundamental maraqlarına ziddir. Hesab edirəm ki, Nikolun səsləndirdiyi bu fikir bəzi politoloqların da iddia etdiyi kimi ”cənab Prezidentlə Putin görüşündən sonra Paşinyan məcbur qalıb və belə bəyanat verib” fikri ilə üst-üstə düşmür. Burada tamamilə başqa bir mövzu var. Paşinyan hazırda Fransanın dili ilə danışmağa başlayıb. Təəssüf ki, bu mövzuda onun mövqeyinin özü fransız qalmaqdadır. Yəni söhbət konkret ondan gedir ki, Fransa və Avropa İttifaqı (Aİ) Qarabağ münaqişəsindən istifadə edib bölgəyə daxil olmaq istəyir. Burada da əsas istifadə etdikləri alət isə Paşinyandır”.

**Ə.Əlibəyli vurğulayıb ki, Aİ-nın Ermənistana yardımı, ATƏT-in Minsk qrupunun xətti ilə fəallaşmalar, Fransa və ABŞ-ın mövzuya yenidən fərqli formatda daxil olma cəhdləri Rusiya və Türkiyəni oyundan kənar qoymaq və Azərbaycana təsir etməyə hesablanıb:** ”Ona görə də Paşinyanın sülhlə bağlı səsləndirdiyi bəyanatın arxasında Aİ-nin ”əli” görünür. Məsələ elə bir həddə gəlib çatıb ki, Azərbaycan və Rusiya prezidentinin görüşünün nəticəsi bütövlükdə 10 noyabr razılaşmasına əməl olunmasına dair tərəflərin niyyətlərinə sadiq qalmasının göstəricisi idi. Yəni Azərbaycan Prezidenti ilə Rusiya rəhbərliyi tərəflərin 10 noyabr razılaşmasına nə dərəcədə sadiq olduğunu, gözlənilən antiterror əməliyyatların mümkünlüyü və kommunikasiyaların açılmasını bir daha dəqiqləşdirdilər”.

**Yeganə Bayramova**

## Şeyxin İrana jesti müzakirələr yaratdı

### “Çünki Tehranın ədalətsiz, haqsız xarici siyasəti cəmiyyətimizdə bu dövlətə qarşı qıcıq yaradıb”



**Qafqazın şeyxi Allahşükür Paşazadənin Bayram namazı zamanı səsləndirdiyi nitqi ciddi müzakirələrə səbəb olub.**

O bildirib ki, İranın dini lideri Xamneyninin fətvası Qarabağ müharibəsindəki qələbəmizi təmin etdi. Elə idisə, bu qədər şəhidi nə üçün verdik?! Niyə həyəcan keçirdik, gecə-gündüz yatmadıq?! Niyə diplomatiyada yüz ölçüb, bir biçdik?! Allahşükür Paşazadə, doğrudan, bütün bunlardan xəbərsizdir?!

**AĞ Partiya sədri Tural Abbaslı “Şərq”ə məsələ barədə münasibət bildirib:** ”Fikrimcə, ajiotajın kökündə dayanan bizim İrana olan haqlı münasibətimizdir. Şeyx Türkiyəyə, Ərdoğana da təşəkkür etmişdi. Niyə həmin ifadələr gündəm olmadı? Bax, əsl sual budur. Çünki İranın ədalətsiz, haqsız xarici siyasəti cəmiyyətimizdə bu dövlətə qarşı qıcıq yaradıb”.

**T.Abbaslı düşünür ki, rəsmi Tehran baş verənlərdən nəticə çıxarmalıdır:** ”Allahşükür Paşazadə məhz İranın yanlış xarici siyasətinə görə hədəfə gəldi. Şeyx İran rəhbərliyinə jest etdi. Qonşu dövlət, heç olmasa, bundan sonra Azərbaycanla normal siyasət aparmalıdır. Əks halda iki-üç ay sonra fərqli bir insanın oxşar açıqlaması da eyni reaksiyaya səbəb olacaq. İran unutmamalıdır ki, orada xeyli sayda soydaşımız yaşayır. Məhz bu səbəbdən xalqımızın rəğbətini qazanmağa çalışmalıdır”.

**Kənan**

# “XXI əsrin çağırışları və Azərbaycan mediası"

## BDU-da onlayn dəyirmi masa keçirilib

Dünən Bakı Dövlət Universitetində Jurnalistika fakültəsinin media nümayəndələri ilə birgə təşkilatçılığı ilə Azərbaycan milli mətbuatının yaranmasının 146-cı ildönümünə həsr edilmiş "XXI əsrin çağırışları və Azərbaycan mediası" mövzusunda onlayn dəyirmi masa keçirilib.





Tədbirin moderatoru, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev 146 yaşlı Azərbaycan mətbuatının ölkəmizdə hüquqi dövlətin möhkəmləndirilməsində, iqtisadi və siyasi islahatların həyata keçirilməsində, Azərbaycanın dünya birliyinə inteqrasiya etməsində, vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

Dəyirmi masada BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektou Əliş Ağamirzəyev çıxış edərək, bildirib ki, 1875-ci il iyulun 22-də ”Əkinçi” qəzetinin nəşrə başlaması ilə böyük maarifçi və naşir Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş Azərbaycan milli mətbuatı ölkəmizdə həmişə qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü olub. Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanda medianın inkişafında xüsusi mərhələ başlayıb. KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində mümkün olub.

Ə.Ağamirzəyev Ulu Öndərin 1998-ci il 16 avqust tarixli fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzuranın ləğv edilməsi, növbəti mərhələdə KİV sahəsində qanunvericilik bazasının yaradılması, milli mətbuatın yaranmasının 130, 135, 140, 145 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsinin ölkəmizdə mətbuata yüksək dövlət qayğısının təzahürü olduğunu deyib.

44 günlük Vətən müharibəsində kütləvi informasiya vasitələrinin fəaliyyəti haqqında məlumat verən Ə.Ağamirzəyev iyunun 4-də xidməti vəzifələrini icra edərkən, Kəlbəcər rayonunun Susuzluq kəndində düşmən minasına düşərək şəhidlik zirvəsinə yüksələn jurnalistlərimiz - AzTV telekanalının operatoru Sirac Abışov, ”AZƏRTAC”ın əməkdaşı Məhərrəm İbrahimovun Azərbaycan jurnalistlərinin simvoluna çevrildiklərini, əsgərlərimizlə birgə ön cəbhədə düşmənə sinə gərən Vətən oğulları kimi adlarını şanlı Qarabağ Zəfərinin qəhrəmanları sırasına yazdırdıqlarını qeyd edib. Daha sonra Vətən müharibəsi dövründə BDU əməkdaşlarının və tələbələrinin informasiya müharibəsində iştirakı, BDU-da həyata keçirilən ”Vətən müharibəsi dövründə medianın fəaliyyətinin təhlili” layihəsi haqqında məlumat verib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev manipulyasiya anlayışı, informasiya cəmiyyəti, jurnalistin ekstermal vəziyyətdə davranış qaydaları, ənənəvi və sosial mediada məsuliyyətliliyin artırılmasının əhəmiyyəti, ekstremal vəziyyətdə medianın funksionallığı, müharibə şəraitində informasiya məkanının qorunması, informasiya təhlükəsizliyinin və milli və dövlət maraqlarının təmin olunması haqqında ətraflı məlumat verib.

Daha sonra dəyirmi masada ”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, Beynəlxalq Jurnalistlər Federasiyasının Azərbaycan təmsilçisi Müşfiq Ələsgərli, Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Allahverdi Məmmədli, ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı çıxış ediblər. Çıxışlarda milli mətbuatımızın keçdiyi inkişaf yolu, bugünkü uğurları, mətbuatın inkişafı üçün dövlətin göstərdiyi diqqət və qayğı, 44 günlük Vətən müharibəsində medianın fəaliyyəti, müharibə vəziyyətində informasiya təhlükəsizliyinin təmin edilməsi və medianın məsuliyyəti, informasiya xaosu, mediada hərbi sirlərin yayılmasının qarşısının alınması, pandemiya dövründə medianın fəaliyyət mexanizmi, ”infodemiya” anlayışı kimi məsələlərdən bəhs olunub.

**İsmayıl**











# Gözün aydın, Azərbaycan!

## Ənvər Paşanın nəticəsi Bakıda, Gəncədə qardaşlarına sarıldı



Türk dünyasının böyük sərkərdəsi - Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına hərbi-siyasi dəstəyini əsirgəməyən, Qafqaz İslam Ordusunu formalaşdıran Ənvər Paşanın nəticəsi Ənvər Burak və Turan Araşdırma Dərnəyinin başqanı Həsən Bəsri Pehlivan Azərbaycanda səfərdədir. Qəhrəman Ənvər Paşanın adını daşıyan Ənvər Burak Qurban bayramı ərəfəsində ilk dəfə Azərbaycana gəlib. Azərbaycan Türk Ocağının dəvətlisi kimi ölkəmizə səfər edən Ənvər Burak və Həsən Bəsri Pehlivan Qarabağ Zəfəri niyyəti ilə dedikləri qurbanları da kəsiblər.









Dəyərli qonaqlar Bakıdan sonra Gəncə şəhərinə də səfər edərək orada görüşlər keçiriblər. Növbəti gün isə Bakıda Qarabağ qaziləri və şəhid ailələri ilə bir araya gəliblər. Səfərlər və görüşlər zamanı Azərbaycan Türk Ocağının sədri Akif Aşırlı, Əli bəy Hüseynzadənin qardaşı nəvəsi Cəmilə Hüseynzadə və Azərbaycan Türk Ocağının üzvləri - Yusif Nəzərli, Sərxan Carçı da qonaqlarla birgə olublar. Qardaş ölkədən gəlmiş dəyərli qonaqlar və Azərbaycan Türk Ocağının üzvləri ilk gün Bakıda Şəhidlər Xiyabanını, Qafqaz İslam Ordusu adına ucaldılmış abidəni, o cümlədən Fəxi Xiyabanı və İkinci Qarabağ müharibəsi şəhidlərinin məzarlarını ziyarət ediblər. Ümummilli lider Heydər Əliyevin və Milli Azadlıq Hərəkatının lideri, mərhum prezident Əbülfəz Elçibəyin məzarları üzərinə qərənfillər qoyublar.

**Ənvər Paşanın nəticəsi Ənvər Burak bildirib ki, hazırda evindən 1500 kilometr uzaqda olsa da, özünü evindəki kimi hiss edir:** "Fikirləşin ki, biri qardaşınızı sıxışdırır, onu əzməyə çalışır. Belə vəziyyətdə ona yardım etməyəkmi? Əlbəttə etməliyik. Heç kim qardaşımıza əl qaldıra bilməz. Azərbaycanda olmaqdan qürur duyuram. Bütün şəhidlərimiz Vətənindədir, heç bir fərqi yoxdur".

**Azərbaycan Türk Ocağının sədri Akif Aşırlı çıxış edərək bildirib ki, o vaxt iki yerdə qurban kəsilmişdi. Onun sözlərinə görə, Bakıda kəsilən qurban şəhərin işğaldan azad olunmasına görə idi. İstanbulda isə Qafqaz İslam Ordusu zəfərinə qurban kəsilmişdi:** "İndi Azərbaycan ərazi bütövlüyünü təmin edib. Ənvər və Nuru Paşaların, bütün şəhidlərimizin ruhu şad olsun".

Əli bəy Hüseynzadənin nəvəsi Cəmilə xanım isə Azərbaycana sülh arzulayıb: "Bütün torpaqlarımız azad edilib. Bu barədə danışanda kövrəlirəm... İndi Əli bəy Hüseynzadənin də ruhu şaddır. Təəssüf ki, onun övladları dünyasını dəyişib. Onların da ruhu şaddır".



**Turan Araşdırma Dərnəyinin başqanı Həsən Bəsri Pehlivan Qarabağ zəfərinə görə çox xoşbəxt olduğunu diqqətə çatdırıb:** "1918-ci ildə çoxlu təmələr atılmışdı. Şükür ki, indi o təmələr üzərində Azərbaycan müstəqildir. 44 günlük müharibədə şəhid olanlar, həmçinin qazilər azadlıq uğrunda mübarizə apardıqlarının fərqində idilər. Bu gün bütün şəhidlərimizi anmaq üçün toplanmışıq".



Türkiyəli qonaqların, Azərbaycan Türk Ocağı rəhbərliyi və üzvlərinin növbəti səfəri Gəncə şəhərinə olub. Türk dünyasının böyük Şeyxi Nizaminin yurdunda bir sıra müqəddəs yerləri ziyarət ediblər. Nümayəndə heyəti əvvəlcə Şeyxzamanlıların tarixi mülkünü ziyarət ediblər. Muzey kimi istifadə olunan mənzil həm də Qafqaz İslam Ordusunun qərargahı kii fəaliyyət göstərib. Evin bir otağında Nuru Paşa yaşayıb. Azərbaycan Xalq Cümhuriyyətinin qurucu liderlərindən Nəsib bəy Yusifbəylinin ata ocağına baş çəkiblər. Nəsib bəy Yusifbəylinin nəvəsi Rıfat bəy Qafqaz İslam Ordusunun gəlişindən söz açıb, qonaqların əyləşdiyi masada vaxtı ilə Nuru paşanın əyləşdiyini deyib. Qeyd olunub ki, onların evi İstiqlal tarixinin yazıldığı önəmli məkanlardandır.

*Ayın 21-də qurbanlar kəsilib və yüzlərlə insana, aztəminatlı ailələrə, qazilərə, keçmiş qaçqın və məcburi köçkünlərə qurban payı verilib. Həmçinin, qonaqlar Qarabağ qaziləri, şəhid ailələri ilə də görüşlər keçiriblər.*

**Azərbaycan Türk Ocağının sədri Akif Aşırlı deyib ki, Ənvər bəy 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan oğulları ilə bir yerdə savaşmaq üçün çağırış etmiş, öz istəyini bildirmişdi:** "Əlbəttə, bəzi prosedurlara görə bunun reallaşması mümkün olmadı. Amma Ənvər bəy bu istəyi ilə Azərbaycan dövlətinin və xalqının yanında olduğunu, öz mənəvi dəstəyini göstərmiş oldu".

**Ənvər Paşanın nəticəsi Ənvər Burak da öz növbəsində Azərbaycan xalqını mübarək Qurban bayramı münasibətilə təbrik edib:** "Burada olmaqdan, xüsusən qazi qardaşlarımızla birlikdə əyləşməkdən böyük qürur hissi keçirirəm. Türkiyə xalqı ilə Azərbaycan xalqının heç bir fərqi yoxdur. Düşüncələrimiz, məramımız, istəyimiz eynidir. Babam sizi öz qardaşları bildiyi kimi mən də sizləri canı, qanı bir qardaşım sayıram. O zaman öz qardaşı Nuru paşanı Azərbaycana göndərdiyi kimi indi də mən sizinlə görüşə gəlmişəm. Azərbaycan xalqı ilə hər zaman qürur duymuşuq. 44 günlük müharibə zamanı və möhtəşəm Qələbədən sonra xüsusi olaraq sizinlə fəxr edirik. Bizlərə "noldu Paşinyan" sözünü söylətdiyiniz üçün Allah sizdən razı olsun".

**Turan Araşdırma Dərnəyinin başqanı Həsən Bəsri Pehlivan da bəyan edib ki, Türkiyə 44 günlük savaşı həyəcanla və qürurla izlədi:** "Üç min şəhidimizə Allahdan rəhmət diləyirik, qazilərə can sağlığı arzulayırıq. Azərbaycanın müzəffər ordusu 30 ilə yaxın işğal altında qalmış torpaqlarını düşməndən azad etməklə həm ədaləti bərpa etdi, həm də Ermənistana və havadarlarına mesaj verdi. Azərbaycanın möhtəşəm qələbəsi düşmənlərə qorxu saldı. Eyni zamanda qardaş ölkənin gücünü bir daha dünyaya nümayiş etdirdi. Türkiyənin Azərbaycanın yan-yana olmasından, qardaşlığından narahat olan kim varsa, bizim düşmənimizdir. Azərbaycanın sevinci bizim sevincimiz, kədəri kədərimizdir. Bir millət, iki dövlət".

Qeyd edək ki, qonaqların Azərbaycana səfəri davam edir.

**İsmayıl Qocayev**



# Boğulan adamlar...

## Dərinə getməyin, cənablar!

**Həmin il ölkə əhalisi ondan danışırdı - dənizdə batmaq üzrə olan qızları ölümün pəncəsindən almış yeniyetmədən - Tofiq Hüseynov. Bu ad və soyad ötən əsrin 50-60-cı illərinin insanlarına tanışdır. Müasir Azərbaycan insanı bəlkə heç eşitməyib də onun haqqında. Kimisə xilas etmək xeyirxah əməl kimi qiymətləndirilir. Tofiq Hüseynovun etdiyi isə sadəcə xeyirxah əməl deyildi. 3 qızı xilas edən yeniyetmə özü dənizin qurbanı olmuşdu. Mən də bu barədə valideynlərimdən eşitmişəm. Deyirdilər ki, ”uşaq” (Tofiq məktəbli idi), özünü atıb dənizə, uşaqları xilas etməyə başlayıb, bir-bir çıxarırmış qızları sahilə. Ağlamaq, qışqırıq səsi gələndə, elə bilib ki, dalğaların qoynunda yenə kimsə var, 3 nəfəri xilas etmiş məktəbli təbii ki, yorulmuş halda, təkrar cumub dənizə. Bu dəfə dəniz ona aman verməyib, daha... ”Şikar”ını əlindən alanı özünə qurban seçib... Bu faciəli hadisə 1958-ci ilin bir yay günündə**



**baş verib. Abşeron çimərliyində. Faciənin üzərindən 16 il keçəndən sonra yeniyetmənin qəhrəmanlığı və faciəli həyatı kinolentinə köçürülüb. Rejissor Eldar Quliyev 1974-cü ildə şair-dramaturq Alla Axundova və Hüseyn Seyidzadənin (görkəmli Azərbaycan kinorejissoru) senarisi əsasında ”Var olun, qızlar” filmini çəkir. Filmin taleyi də parlaq hesab edilə bilməz. Əslində, filmi Hüseyn Seyidzadə çəkməliymiş. Başqa bir yazıçı senarinin ona məxsus olduğunu deyir, filmin çəkilişləri dayandırılır.**

A.Axundova və H.Seyidzadə, nəhayət, senarinin onlara məxsusluğunu təsdiqlədə bilir, lakin rejissor işi Eldar Quliyevə həvalə edilir. Yəni filmin taleyində də qırıqlıq, bədxahlıq var. Eynən Tofiq Hüseynovun həyatı kimi. Film bir yeniyetmənin cəsurluğu, insan həyatını xilas etmək üçün öz həyatından keçmiş bir insana həsr edilməsinə baxmayaraq bu gün də efirdə çox nadir hallarda nümayiş etdirilir. Halbuki günümüzdə insanlıq nümunələrinə hədsiz ehtiyac duyulur. Oxucunu yorduq, bəlkə də. Niyə bu filmdən danışırıq, çoxunuz təxmin etdiniz, yəqin. Dənizdə batmaq hadisələri çoxalıb, son günlər. Ölənlər də var, xilas olunanlar da.

**Pandemiya, üstəgəl dənizdə boğulma - faciənin miqyası böyüyür**

Karantin qaydalarının yumşalması ilə dəniz sahili doldu-daşdı. Ötən il dəniz havasına tamarzı qalmış əhali, baxmayaraq ki, çimərlik portalı fəaliyyət göstərirdi, SMS icazələr, əvvəlcədən məkan müəyyənləşdirmə, vaxt darlığı insanlara çimərliyin ləzzətini doyadoya yaşamağa imkan vermirdi. Bu il isə fərqli oldu. Karantin qaydalarında tətbiq edilən yumşalmalar əhalinin çimərliklərdən istədiyi kimi istifadə etməsinə imkan yaradır. Karantin qaydalarından qüvvədə olanları var hələ. Amma kimdi daha qaydalara məhəl qoyan?! Çimərlikdə sosial məsafə saxlamaq tələbi də insanlara gülünc görünür. İnsanlar dənizə can atır. Baxmayaraq ki, ictimai çimərlik problemi hələ də var, əhalinin aztəminatlı qismi ödənişli çimərliklərdən istifadə edə bilmir. Lap elə ödənişsiz çimərliklərdə də 1 günlük istirahət bəlli məbləğə başa gəlir. Bununla belə, insanlar günəş-dəniz-qumlu sahildən vaz keçmir. Nə deyirik, keçməsinlər, lakin həyatlarından da vaz keçməsinlər. Dənizə can atarkən, canlarını heçə saymasınlar. Çimərlik mövsümü açılandan demək olar hər gün dənizdə boğulmalar, ölüm hallarının statistikası açıqlanır. Fövqəladə Hallar Nazirliyi dənizdə boğulma təhlükəsi ilə üzləşənlərin xilas edilməsi, bəzən də təəssüf ki, dənizdə bataraq həyatlarını itirənlər barədə məlumatlar verir. Çimərliklərdə FHN-in xilasediciləri var və onlar üzərlərinə düşən vəzifəni yerinə yetirirlər. Lakin faciəli hadisələr yenə baş verir. Əksər hallarda da qeyri-çimərlik ərazilərdə. FHN çimərlik mövsümü elan ediləndən əhaliyə müraciət ünvanlayır ki, qadağan olunmuş ərazilərdə çimməsinlər, göstərilən xətdən kənara çıxıb üzgüçülük ”məharətlərini” nümayiş etdirməsinlər, çimərlik ərazisində vacib qaydalara riayət etsinlər. Nə fayda?! Bəziləri qaydaları pozur, nəticə də faciəli olur. Bu günlərdə Fövqəladə Hallar Nazirliyinin yaydığı daha bir xəbərə görə, ”112” qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında nazirliyin aidiyyəti qurumları qəza-xilasetmə əməliyyatları həyata keçirib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində insanların həyatının xilas olunması təmin edilib. Ümumilikdə, ötən sutka ərzində 5-i azyaşlı olmaqla 9 nəfər, o cümlədən dənizdə çimərkən batma təhlükəsi ilə üzləşən 1 nəfər xilas edilib. Həmçinin, Novxanı kəndində dənizdə qeyri-çimərlik ərazidə batan



## Üzə bilməyən adam çiynindən yuxarı suya girməməlidir

2000-ci il təvəllüdlü İsmayılov Zaur Raqib oğlunun meyiti dalğıcaxtarış qrupu tərəfindən tapılaraq aidiyyəti üzrə təhvil verilib. Bundan başqa, Samur-Abşeron su kanalının Abşeron rayonu, Ceyranbatan qəsəbəsi ərazisindən keçən hissəsində suda batan 1998-ci il təvəllüdlü Nurəlizadə Güləli Emin oğlunun meyiti xilasetmə qüvvələri tərəfindən çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. Belə. İnsanlar qaydaları pozmağa niyə bu qədər meyillidir?

**”Gərək yaxanı ələ verməyəsən”**

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov təcrübəli üzgüçü kimi batmaq və boğulmaq təhlükələri ilə üzləşdikdə insanın necə davranmalı olduğu barədə ”Şərq”ə danışdı:**

- Mən Şimal Buzlu okeanı xaric, dünyanın bütün dəniz və okeanlarında üzmüşəm. Təcrübə qazanmışam. Üzməyi sevirəm. Xüsusilə də açıq dənizlərdə. Dəniz ona görə təhlükəli hesab edilir ki, burada ən mahir üzgüçü də bata bilir. Mən bunun şahidi olmuşam. Özünə, gücünə güvənən mahir üzgüçü bir dalğanın hərəkətindən müvazinətini itirib və həyatını da itirib. Dəniz, okean elə bir ümmandır ki, onun daxilində, dərinliyində nələr var, tam olaraq heç kəsin xəbəri yoxdur. Dəniz və okeanlarla bağlı aparılan araşdırmalar yalnız cüzi bir hissəni təşkil edir. Ona görə də insan özünə arxayın olmamalıdır. Mən özüm illər əvvəl batmaq təhlükəsi ilə üz-üzə qalmışam. Bakıya qayıdırdım, Qaradağ tərəfdə dənizə baş vurmaq keçdi könlümdən. Hava artıq qaralmaq üzrə idi. Dənizə atıldım, bir dalğa başımın üzərindən keçdi, başımı sudan çıxaranda sahili itirdiyimi fərq etdim. İnsan belə halda həyəcan keçirir, batmaq qorxusu bürüyür adamı. Özünü əlacsız, kimsəsiz, nəhəng dalğaların əhatəsində köməksiz hiss edirsən. Köməyimə çatan yolda hərəkət edən avtomobillərin işıqları oldu. Başa düşdüm ki, sahil işıq gələn səmtdədi. Üzüb sahilə çıxdım. İki nəfəri də xilas etmişəm. Hadisənin biri 1997-ci il martın 9-da olub. Dənizkənarı parkda gənc bir qızın özünü dənizə atdığını görmüşəm, ardınca suya tullanıb onu xilas etmişəm. Qızın əl çantasından tələbə bileti çıxmışdı, bilindi ki, tələbədir.

**Batan insanı xilas etmək üçün necə davranmaq lazımdır?**

*E.Hüseynov qeyd etdi ki, hər adam batan insana yaxınlaşmağa cürət etmir. Belə inanc var ki, batan adam ona köməyə gələn adamı da dərinə çəkir. Bu, müəyyən mənada həqiqətdir:*

- Bilirsiz, batmaq təhülkəsi ilə üzləşən insan yapışmağa bir tutacaq gəzir. Ona yaxınlaşan adamı görəndə ölüm təhlükəsi ilə ondan yapışır, əlindən, qolundan, hardan gəldi, istəyir ona tutub suyun üzərinə çıxsın, qorxu hissi altında kobud hərəkətlər edir, çırpınır, dartınır, əlbəttə ki, onu xilas etməyə gəlmiş adamı da yorur. Hətta onu batıra da bilir. Batmaqda olan insan ona köməyə gəlmiş adamın çiyinlərindən basaraq suyun üzərinə çıxmağa çalışır. Belə halda köməyə gələn özü bata bilər. Odur ki, xilasedicilər təlim görmüş olmalıdırlar. Adi insanlara isə məsləhətim budur ki, əgər kiməsə kömək etmək istəyirsinizsə, çalışın, əlinizdən, qolunuzdan yapışmasınlar, əl-qolunuzu boş, sərbəst saxlamağa çalışın, çünki sahilə tərəf üzməlisiniz və təhlükədə olan adamı da özünüzlə daşımalısınız. Ən yaxşısı, batan insana tərəf nəsə uzatmaqdı, məsələn, əyninizdəki geyimi çıxarıb ona tərəf uzadın, qoy ondan yapışsın. Ya da adamın saçlarından tutun, çəkin. Ayağından da tutub özünüzə tərəf çəkə bilərsiniz. Amma çalışın ”yaxanızı ələ verməyəsiniz”.

***E.Hüseynov Xəzər çimərliklərində üzənlərə xəbərdarlıq etdi:***

- Dəniz havası, günəş əlbəttə, pandemiya dövründə vacibdir. İnsanlar immunitetlərini gücləndirməlidirlər. Günəş şüası - Vitamin D immuncüçləndirici əsas elementdir. Lakin dənizə gedənlər ehtiyatı da əldən verməməlidir. Xəzərin dibi cürbəcür metal tullantıları ilə doludur. İnsanın bədənin kəsib keçər. Bir çox yerlədə dənizin səthi çaala-çuxurdu. Vətəndaşlara məsləhətim budur ki, icazə verilən ərazilərdə çimin. Qeyri-çimərlik ərazilərdə çimmək təhlükəlidir. Nəzarət olunan, xilasedicilərin fəaliyyət gpöstərdiyi çimərliklərdən istifadə etmək lazımdır. Boğulmaq təhlükəsi ilə üzləşən insan qışqırıb köməyə çağırmaqdan çəkinməməlidir. Qışqırsa, bağırsa, səsi mütləq eşidiləcək və kimsə köməyinə çatacaq. Ən əsası isə, üzə bilməyən adam çiynindən yuxarı suya girməməlidir. Su döş qəfəsinədək qalxdı, yetərlidir. Bəzən insanlar dənizə aludə olub, dərinə gedir. ”Ayılan”da görür ki, su boğazına çatıb və panikaya düşür. Bu da təhlükənin miqyasını böyüdür.

**Məlahət Rzayeva**

# Əbədi dostluq mümkün deyil

## Rusiya və Çinin müttəfiqliyi zamana və vəziyyətə görə dəyişəcək



"Dövlətlərin dostluğu olmaz, yalnız maraqları olar". Bu fikirləri "Şərq"ə açıqlamasında Dövlət İdarəçilik Akademiyasının Politoloqlar Klubunun sədri Elman Vəliyev deyib. Analitik qeyd edib ki, maraqlar naminə dostluq edənlərdən biri də Rusiya ilə Çindir: "Hazırda bu iki dövlətin siyasi arenada yaxınlığını görürük. Halbuki, 1969-cu ildə ərazi uğrunda müharibə etmişdilər.

Vəziyyət elə həddə çatmışdı ki, SSRİ Çinə qarşı nüvə silahı tətbiq edəcəkdi, amma alınmadı. Deməli, həqiqətən maraqlar xətrinə onlar bu gün bir masaya əyləşirlər. Rusiya adətən hərbi sistemə üstünlük verən dövlətdir. Çin isə daha çox iqtisadi amilləri nəzərə alır. İqtisadi məsələlər, ABŞ, Qərb faktorları bu iki dövləti bir-birinə yaxınlaşdırır. Rusiyanın son illərdə ona qarşı tədbiq edilən sanksiyalardan, embarqolardan iqtisadiyyatı müəyyən qədər çətinliklə üzləşib. Rusiya buna görə də Çinlə əlaqəni inkişaf etdirməyə çalışır. Bu da Çinə sərf edir. Amerikanın sabiq prezidenti Donald Tramp Çinin böyük təhlükə olacağını, Amerikanın əl-ayağına dolaşacağını deyirdi. Haqlı idi də. Yeni Prezident Bayden daha çox Rusiyaya təzyiqlər etdi. Bu da Rusiyanı Çinə daha çox yaxınlaşdırdı. Tramp yenə də deyir ki, Bayden Amerikanı uçuruma aparır, Rusiya ilə Çin əməkdaşlığı daha da artırır. Düzdür, Trampı siyasətçi kimi dəyərləndirmirlər, amma hazırkı durum deyilən həqiqətləri əks etdirir. İyun ayında Rusiya Prezidenti Vladimir Putin və Çin Xalq Respublikasının Sədri Şi Cinping arasında videokonfrans formatında görüş keçirilmişdi. Görüş Rusiya ilə Çin arasında mehriban qonşuluq, dostluq və əməkdaşlıq haqqında Müqavilənin imzalanmasının 20 illiyinə həsr olunmuşdu".

*Siyasi-şərhçi əlavə edib ki, digər bir məqam isə Rusiya Xarici işlər naziri Sergey Lavrovun Moskva ilə Pekinin hərbi əməkdaşlığı uğurla inkişaf etdirdiyini və iki ölkə arasındakı münasibətlərin görünməmiş bir səviyyəyə çatdığını bildirməsidir:* "Həmçinin, bu əməkdaşlığın üçüncü ölkələri hədəf almadığını qeyd etməsidir. İlk öncə qeyd edim ki, bu faktlar digər güclərə bir göstərişdir. Yəni ki, biz iki dövlət hərbi, iqtisadi əməkdaşlığımızı inkişaf etdiririk, lazım gələ xarici təhlükələrə qarşı bir blokda yer ala bilərik. İkinci bir məqam isə Lavrov bu əməkdaşlığın üçüncü ölkələri hədəf almadığını qeyd edib. Bunu iki mənada izah etmək olar. Ya iki dövlət birlikdə əməkdaşlığı hər hansı xarici müdaxilə olanda yardım etmək məqsədi ilə inkişaf etdirirlər, ya da həqiqətən üçüncü ölkələri nəzərdə tutmayıb öz əlaqələrini inkişaf etdirirlər. Amma mən bunu siyasi meydanın bu cür qarışmasından, dövlət üçün təhlükələrin yaranmasından dolayı digər qüvvələr əleyhinə əlaqələri inkişaf etdirmək kimi qiymətləndirirəm. Sözsüz, bu iki dövlət arasında iqtisadi əlaqələr də normaldır. Çin ikili standartlar oyunu oynayır. Hələ ki, siyasət cameəsində adı tez-tez müharibə proseslərində hallanmır".

**E.Vəliyev diqqətə çatdırıb ki, Çin qərblə də, şərqlə də əlaqələri normal tutmağa çalışır:** "Düşünür ki, qərblə münasibətləri korlasa, iqtisadi sanksiyalar, embarqolar tədbiq etsə, bu, Çin iqtisadiyyatına xələl gətirə bilər. Çinin Şərqi Türküstandakı uyğur türklərinə qarşı yeritdiyi iyrənc siyasətə dövlətlərin dillənməməsinin Çinin yeritdiyi iqtisadi siyasət nəticəsindədir. Rusiya-Çin-İran əlaqələri son zamanlar bir xeyli irəli gedib. Əlbəttə ki, bu irəli getmək digər təhlükələrə qarşı lazım olsa, bir-birə dəstək verməkdən irəli gəlir. Rusiya ilə İran arasında da əlaqələr xeyli güclənib. Bu 3 dövlət arasında iqtisadi və hərbi anlaşmalar var. Çin bu gün Rusiya ilə dostluq nümayiş etdirirsə, bu öz xeyrini güddüyü üçündür. Əlində şans olsa, tək hegemonluq etməyə çalışar. Çin iqtisadi siyasət yeridir. Çalışır ki, digər dövlətlər ona borclu olsun, ondan asılı hala düşsün. Mərkəzi Asiya dövlətləri ilə sıx əlaqədədir. Bu ərazilər bir xeyli müddət Rusiya himayəsində olub. İndi də təsiri qalmaqdadır. Çin istəyir ki, bu əraziləri öz əlinə alsın. Və bu istiqamətdə daha çox iqtisadi planlara üstünlük verir. Amma bu gün Rusiya ilə Çin müttəfiqlik etməyə çalışırsa, bu, daimi deyil. Müvəqqəti xarakter daşıyır. Maraqlar hazırda uzlaşır, amma uzlaşmayan zaman müttəfiqlik mübarizəyə çevrilə bilər. Nə Rusiya istəyər qonşuluğunda Çin kimi bir güclü dövlət olsun, nə də Çin istəyər. Hesab edirəm ki, Çin gələcəkdə bir müddət iqtisadi cəhətdən üstünlüklər qazanacaq. Amma buna qarşı hesab edirəm ki, lazımlı tədbirlər görüləcək. Siyasətdə belə bir sloqan vardır: "Düşmənimin düşməni dostumdur". Ola bilər gələcəkdə Çinin güclənməsi əleyhinə Rusiya ilə Amerika müttəfiqliyi də alınsın. Bu proseslərdə əsas məqsəd ilk öncə öz maraqlarını təmin etmək və təminat üçün lazımdırsa, ayıya dayı demək!".

**Aynurə Pənahqızı**



## Gürcüstan vasitəçilik edə bilməz

### Ermənistana təsir mexanizmi yalnız ABŞ-ın əlində idi

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə Batumidə keçirdiyi görüşdə vasitəçilik təklif edib.**

O, bölgədə sülh və sabitliyin əldə olunması üçün Gürcüstanın danışıqlar platformasına çevrilməsinə hazırlığını təsdiqləyib. Tərəflər Gürcüstanın Qafqazdakı müsbət rolunu müzakirə ediblər. Ş.Mişel Gürcüstan baş nazirinin Azərbaycan və Ermənistan arasında uğurlu vasitəçiliyini xüsusilə vurğulayıb.

Politoloq İlqar Vəlizadə Tbilisinin sözügedən təşəbbüsünü "Şərq"ə şərh edib: "Gürcüstan Ermənistana nə qədər təsir edə bilər? Heç nə qədər. Və, ümumiyyətlə, bunu istədiyindən əmin deyiləm. Ona görə də belə bir platforma lazımi nəticə verməyəcək. Bizə qarşı tərəf üzərində təsir imkanlarına malik vasitəçi lazımdır. Yeri gəlmişkən, xatırladım ki, əvvəlki proseslərdə Gürcüstan sadəcə meydança kimi istifadə olunurdu. Əsas təsir mexanizmi isə ABŞ-ın əlində idi".

**Kənan**

# Əfqanıstanda nəzarət hazırda Türkiyənin əlindədir

## "Taliban" danışıqlara hazır olsa, Ankara buna şərait yaradacaq

ABŞ Silahlı Qüvvələri Baş Qərargah Rəisləri Komitəsinin rəisi general Mark Milli brifinq keçirib. O, açıqlamasında bildirib ki, üç aydan az müddətdə ABŞ qoşunlarının Əfqanıstandan çıxarılmasının, demək olar ki, 95 faizi tamamlanıb. General bildirib ki, paytaxt Kabil xaricindəki bütün hərbi bazalar tamamilə Əfqanıstan Müdafiə Nazirliyinə və Əfqan təhlükəsizlik qüvvələrinə verilib. Maraqlıdır ki, bundan sonra Türkiyə hansı addımı atacaq?

Mövzu ilə bağlı BAXCP sədrinin müavini, politoloq Azər Qasımov "Şərq"ə fikirlərini dəyərləndirib. Politoloq qeyd edib ki, Amerikanın Əfqanıstandan qəfil çıxma qərarı almasının ən maraqlı tərəfi digər ətraf və maraqlı ölkələrin təhlükəsizlik planlarına gözlənilməz zərbə vurması olub: "Ümumiyyətlə, Amerikanın bu qərarına elə bu kontekstdən yanaşmaq lazımdır. Çünki həqiqətən də hazırkı durumdan bütün ölkələr çox narahatdırlar. Narahatlıq elə həddə çatıb ki, Rusiya, İran, Çin özlərini itiriblər, nə edəcəklərini bilmirlər. Dünya miqyasında terrorçu kimi tanınan "Taliban" təşkilatı ilə açıq-aşkar görüşmələrini belə heç olmasa gizli şəkildə bağlı qapılar arxasında etmək belə ağıllarına gəlmir. "Taliban"la görüşürlər, özlərinə ürək-dirək verirlər ki, "Taliban" onlara söz verib ki, hücum etməyəcək. Ancaq görünən odur ki, Rusiyanın Qırğızıstandakı 201-ci hərbi bazası gücləndirilir, orada təlimlər keçirilir və güc göstərişi edilir. Sonra isə deyirlər ki, biz "Taliban"ı idarə edirik. Əlbəttə, Amerika hər şeyi dəqiq hesablayıb. Uzun aylar "Taliban"la bir sıra danışıqlar aparılıb və nəticədə belə qərar alınıb. Bu, heç vaxt təsadüf ola bilməz. Amerika bu addımı ilə özünü güclü hesab edən Rusiya və Çini fakt qarşısında qoyub. Bu proseslərə də nəzarəti Türkiyəyə tapşırıb".

**A.Qasımov əlavə edib ki, regiondakı bütün ölkələr Türkiyənin Əfqanıstandakı fəaliyyətinə möhtac duruma düşüblər:** "Türkiyə Əfqanıstanda "Həmid Karzai" adına hava limanını idarə və müdafiə edir. Bu nüansda bütün mətləblər aşkar görünür. Belə ki, Əfqanıstanla tək hava əlaqəsi olan bir mühüm obyektin idarəsi Türkiyədədir. Belə olduğu təqdirdə ondan soruşulmamış hansı dövlətin rəsmisi və ya digər əlaqə yaratmaq istəyən şirkəti ora gələ bilər? Deməli, hazırda Əfqanıstanın nəzarəti Türkiyənin əlindədir. Türkiyə digər özünü itirmiş ölkələrdən fərqli olaraq özünü sivil və beynəlxalq hüquqa hörmət edən dövlət kimi aparır. Türkiyə "Taliban"la açıq ya gizli danışıq aparmasa da, əslində "Taliban"ın Türkiyəyə və onun Prezidenti R.T.Ərdoğana münasibəti müsbətdir. "Taliban" rəsmisi yaxın günlərdə: "Biz Türkiyəni və Ərdoğanı sevirik. Ərdoğan müsəlman dünyasının lideridir. İstəyirik ki, Türkiyə NATO ölkəsi kimi yox, özü kimi Əfqanıstanda olsun" - demişdi. Hesab edirəm ki, Türkiyə "Taliban"la Rusiyada, İranda və Qətərdə aparılan separat danışıqlara rəsmi şəkildə qatılmamaqla öz-özünü qoruyur və gözləmə mövqeyi seçib".



Politoloq hesab edir ki, "Taliban"ın Əfqanıstanda uğur qazanması və ölkənin ərazilərinin zəbt edilməsi bir müddət davam edəcək: "Bu müddətdə də "Taliban"la Türkiyənin kənardan nəzarətində görüş aparılacaq. Əgər "Taliban" rəsmi əfqan hökuməti ilə razılığa gəlib ölkənin idarəsində birlikdə iştirakı qəbul etsə, Türkiyə buna şərait yaradacaq. Yox əgər razılığa gəlməsələr, Türkiyə Suriyada da olduğu kimi rəsmi əfqan hökumətinin tərəfində çıxış edərək taliblər güc yolu ilə tutduğu ərazilərdən geri atacaq. Təbii ki, taliblər də ölkənin vətəndaşları kimi ordu yaratmalıdırlar. Bu baxımdan, hesab edirəm ki, Türkiyənin onlara güc tətbiq etməsindən sonra əgər taliblər anlasalar ki, artıq paytaxt Kabili tutmaq mümkün deyil, o zaman danışığa gedəcəklər".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;**

Diaspor sahəsində aparılan dövlət siyasəti, görülən işlər, əldə edilən uğurlar zəmin yaradır ki, Azərbaycan diasporu əhatə dairəsini genişləndirsin, Azərbaycan lobbisi daha da güclənsin. 50 milyondan çox azərbaycanlının 10 milyondan çoxu dünyanın 5 qitəsində məskunlaşaraq icmalarda, təşkilatlarda birləşir, dərnəklər, asossiasiyalar yaradırlar.

# Gənclər gücümüzə güc qatır

*Yeni diaspor imici formalaşdırmaq mümkün olacaq*



Hazırda Azərbaycan diaspor təşkilatlarının sayı 500-dən çoxdur ki, həmin təşkilatlar ölkəmiz üçün əlamətdar və tarixi günlərin qeyd olunmasında, taleyüklü məsələlərdə mənsub olduqları xalqa dəstək olmaqdadırlar. Son dövrlərdə yaradılan Azərbaycanlıların Koordinasiya şuraları (25 ölkəni əhatə edən 11 Koordinasiya Şurası mövcuddur), Azərbaycan evləri, "Qarabağ" məktəbləri vasitəsilə diaspor işi yeni və mütəşəkkil mərhələyə qədəm qoyub. Azərbaycanlı gənclər də təşkilatlanma işinə fəallıqla qoşulur, gənclərdən ibarət birliklər yaradır, təhsil aldıqları universitetlərin nəzdində cəmiyyətlər təsis edirlər. Bu təşkilatlara Rusiya Azərbaycanlı Gənclər Birliyini ("AMOR"), Koreyada fəaliyyət göstərən "Buta" Gənclər Birliyini, Norveç Azərbaycanlı Gənclər Təşkilatını (NAYO), Azərbaycan-İtaliya Gənclər Asossiasiyasını, Avstriya Azərbaycanlıları Akademik Birliyini, Türkiyədə fəaliyyət göstərən AGAH-ı (Azərbaycan Gənclərinin Ankara Həmrəyliyi) və digər çoxlu sayda gənclər təşkilatlarını aid etmək olar. Vətəndən kənarda yaşayan soydaşlarımıza diqqətin göstərilməsi dövlət üçün hər zaman prioritetdir. Əlbəttə ki, əsas məqsəd xaricdəki soydaşlarımızın Vətənlə əlaqələrinin daima qırılmaz tellərlə bağlanmasıdır. Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbərliyində dəyişikliklər edildikdən sonra diaspor fəaliyyəti ilə bağlı bir sıra təqdirəlayiq addımlar atılıb. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2018-ci ilin iyul ayında Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında fərman imzalayıb, publik hüquqi şəxs statuslu Azərbaycan Diasporuna Dəstək Fondunun Nizamnaməsi təsdiq edilib. Fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, milli-mənəvi dəyərlərimizi inkişaf etdirmək və dünyada daha geniş tanıtmaq, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək və bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə yaradılıb. Fondun yaradılması diaspor fəaliyyətinə yeni maliyyə imkanları gətirəcək, lobbiçilik quruculuğunda səmərəli nəticələrin əldə olunmasına şərait formalaşdıracaq. Ümumiyyətlə, bu fondun yaradılması diasporun inkişafına böyük təkan verəcək. Şübhəsiz, bundan sonra diasporda əhəmiyyətli şəkildə keyfiyyət dəyişkənliyi özünü büruzə verəcək. Diaspora bu münasibətin dəyişməsi, ayrıca diasporlararası münasibətlərə də effektiv təsir göstərəcək. Ümumi olaraq diaspor təşkilatlarına fond tərəfindən dəstəyin göstərilməsi diaspor hərəkatını yeni müstəviyə çıxaracaq.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında bildirib ki, xaricdəki ictimai fəal gənclər gələcəyin diaspor liderləridir.** Onun sözlərinə görə, gənclərimiz kifayət qədər təşkilatlanıblar və ölkəmizin aktiv təbliğatını aparırlar: "Xaricdə yaşayan Azərbaycan əsilli gəncləri özündə birləşdirən "Azərbaycan Diaspor Gəncləri" təşkilatı artıq fəaliyyətə başlayıb. Təşkilatın əsas məqsədləri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılması, Azərbaycanın tarixi-mədəni irsi və adət-ənənələrinin intensiv təbliği, azərbaycanlı gənclərin və tələbələrin sıx əməkdaşlıq şəraitində, koordinasiyalı fəaliyyətinin təmin edilməsi, o cümlədən yaşadıqları ölkələrin cəmiyyətlərinə inteqrasiyanın gücləndirilməsidir. Ümumiyyətlə, xaricdəki gənclərimizin aktivliyi diasporun gücünə güc qatır. Belə gənclərimizlə yeni diaspor imici formalaşdırmaq mümkün olacaq. Diaspor Gənclərinin I Yay Düşərgəsi, bu baxımdan, əhəmiyyət kəsb edir. Bu tədbir xaricdəki gəncləri motivə edib Azərbaycan adına birləşdirmək baxımından da önəmlidir. Yay Düşərgəsi yeni sima və ideyaların ortaya çıxmasında əhəmiyyətli rol oynayıb. Gənclərin aktivliyi yeni nəsil diasporun formalaşması deməkdir. Bu həm də diaspordakı təbii yenilənmə prosesi deməkdir. Bugünkü ictimai fəal gənclər gələcəyin diaspor liderləridir. Bu gəncləri düzgün yönləndirmək lazımdır ki, gələcəkdə diaspor olaraq onlardan müsbət nəticə gözləyək. Xaricdəki aktiv gənclər çox böyük potensial gücə malikdirlər. Bu baxımdan, xaricdəki gənclər informasiya müharibəsinə öz töhfələrini verə bilərlər. Fikrimizcə, xaricdəki gənclərdən ibarət ölkə və ya regionlar üzrə könüllü qrupların yaradılması ilə informasiya müharibəsində daha effektli nəticələrə nail olmaq mümkündür".

**Birlik rəhbəri qeyd edib ki, diaspor sahəsində aparılan islahatlar öz müsbət nəticəsini verir:** "Bu gün diasporun inkişafı və strateji hədəflərinə çatması üçün yeni taktiki yollardan istifadə olunmalıdır. Bununla yanaşı, diasporun özünə münasibət dəyişməlidir. Hazırda diaspor sahəsində aparılan islahatlar və qarşıya qoyulan vəzifələrin icrası üçün atılan addımlar artıq öz müsbət nəticəsini verir. Ən vacib məqam kimi isə xaricdəki soydaşlarımızın təşkilatlanması və həmrəyliyinin güclənməsi xüsusi qeyd olunmalıdır. Son zamanlar Almaniya, Fransa, İsveçrə, İsveç, Hollandiya, ABŞ-da Koordinasiya Şuralarının yaradılması birlik və həmrəyliyin nümunəsidir. Belə şuralar perspektiv layihələri həyata keçirərkən xaricdəki soydaşlarımızın fəallıq nümayiş etdirməsində kömək olacaq. Barışıq, birlik, həmrəylik üçün atılan istənilən addım hər soydaşımız tərəfindən yüksək qiymətləndirilir və dəstəklənir. Dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsi Ulu Öndər Heydər Əliyev tərəfindən diasporun qarşısında qoyulan əsas vəzifədir. Ulu Öndər Heydər Əliyev hansı ölkəyə gedirdisə, diasporumuzla görüşəndə bu məsələni soydaşlarımıza xatırladırdı. Milli diasporun yaşadıqları ölkələrdə birləşməsi, eləcə də bu istiqamətdə işlər görməsi vacib amildir. Xüsusən 44 günlük Vətən savaşından sonra dünyanın hər yerində diasporumuzun milli birliyinə böyük ehtiyac var. Bu sahədə diasporun çalışmalarını davam etdirməsi vacib amildir."

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

İyunun 20-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya rəhbəri Vladimir Putinin dəvəti ilə Rusiyaya işgüzar səfər edib. Liderlərin görüşü zamanı ölkələr arasında olan əməkdaşlıq məsələləri, ikitərəfli münasibətlərin inkişafı, istiqamətlər müzakirə olunub. Bununla yanaşı, İkinci Qarabağ müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar, sülhün əldə edilməsi istiqamətində atılmalı olan addımlar ətrafında fikir mübadiləsi aparılıb.

# Bölgəyə sülhü böyük dövlətlər gətirəcək

*Rəsmi Bakı Rusiya ilə əlaqələrin inkişafına hər zaman xüsusi önəm verib*



Analitiklərə görə, prezidentlərin görüşün ictimaiyyətə açıqlanmayan hissəsində bir sıra məsələlər, xüsusilə də, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Birgə Bəyanatın icrası ilə bağlı müzakirələr aparıblar. Prezident İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinlə görüşü zamanı deyib ki, Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayı 15 mindən çoxdur. Azərbaycanda isə 16 min tələbə rus dili bölməsində təhsil alır: "Beləliklə, Azərbaycan gənclərinin belə bir böyük dəstəsi artıq Rusiya ilə dil, ünsiyyət və təhsil vasitəsilə bağlıdır. Düşünürəm ki, bizim təcrübəmizi böyüməkdə olan nəslə əməli surətdə ötürmək çox vacibdir".

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, Azərbaycan Rusiya ilə konstruktiv əməkdaşlıqda maraqlıdır.** Deputatın sözlərinə görə, rəsmi Bakı Rusiya ilə əlaqələrin inkişafına hər zaman xüsusi önəm verib: "Hazırda Azərbaycan və Rusiya arasında qarşılıqlı əlaqələr yüksək səviyyədədir. Burada iki ölkə prezidenti arasında səmimi, konstruktiv və ikitərəfli əlaqələr xüsusi rol oynayır. Bu, eyni zamanda, iki dövlət rəhbəri arasında şəxsi münasibətlərin, Rusiya-Azərbaycan əlaqələrinin və geosiyasi reallıqlara yanaşmada ortaq mövqeyin xarakterindən irəli gəlir. Hazırda hər iki ölkə bir çox regional layihələri uğurla icra edirlər.

İki ölkə rəhbəri arasında görüşdə bir sıra mühüm qarşılıqlı məsələlər müzakirə olundu. Rusiya Prezidenti Azərbaycan Prezidentinə kompromisli qərarların tapılmasına görə təşəkkürünü bildirdi. Dövlət başçısı da Rusiya rəhbərinə təşəkkürünü çatdırdı. Prezident İlham Əliyev bu il Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialının birinci buraxılışı olduğunu, MDU-nun və Seçenov Universitetinin filiallarında mindən çox tələbənin təhsil aldığını, Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayının 15 mindən çox olduğunu, Azərbaycanda isə 16 min tələbə rus dili bölməsində təhsil aldığını xüsusi vurğuladı. Bu, öz növbəsində Azərbaycanda rus dilinə və mədəniyyətinə göstərilən diqqət və qayğıdan xəbər verir".

**C.Məmmədov bəyan edib ki, bu gün qarşıda duran əsas məsələ bölgədə sülhün və əməkdaşlığın təmin olunmasıdır:** "Təəssüflə qeyd etmək lazımdır ki, Ermənistan 10 noyabr razılaşmasından 8 ay keçməsinə baxmayaraq konstruktiv mövqe nümayiş etdirmir, atəşkəsi tez-tez pozur, mina xəritələrini bütövlükdə Azərbaycan tərəfinə təhvil vermir. Ermənistan bu təxribatlara son qoymalı, konstruktiv mövqe nümayiş etdirməlidir".

**İsmayıl Qocayev**

# Narkotikanı yayan maraqlı qüvvələr çoxdur



*Geniş ticarət şəbəkəsi quran adamlar müəyyən imkanlı dairələrə məxsusdurlar*

Son bir ay ərzində Azərbaycanda "patı", "şüşə" adı ilə tanınan narkotik vasitə - metamfetamindən istifadə geniş yayılıb. Onun satış qiymətinin ucuz olması bu bəlaya düçar olan gənclərin sayının sürətlə artmasına gətirib çıxarıb. Ən pisi də odur ki, yeniyetmələr, məktəblilər bu s?əbəkəyə daha çox cəlb olunur.

Sosial şəbəkələrdə də ciddi müzakirə mövzusuna çevrilən "patı" probleminə qarşı artıq rəsmi qurumlar da fəaliyyətə başlayıb. Hər gün müxtəlif ərazilər üzrə keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən şəxslər məsuliyyətə cəlb edilir.

**Millət vəkili Sabir Rüstəmxanlı "Şərq"ə qeyd edib ki, son zamanlar narkotikə qurşanan gənclərimizin sayı, bəlkə, cəbhədə şəhid olanlardan daha çoxdur:** "Təəssüf ki, bu bəla getdikcə yayılır. Bunun bir səbəbi də kasıblıq və işsizlik, insanların asan yolla qazanc axtarmasıdır. Bütün dünyada narkotik ticarəti ilə məşğul olan iri şəbəkələr, mafiya qruplaşmaları var. Onlar bir qitədən digər qitəyə narkotik vasitələr daşımaqla məşğuldurlar. Nə qədər işlər görülsə də, narkotik ticarəti ilə məşğul olan güclər gizli və qeyri-adi yollardan istifadə edirlər. Onların qarşısını almaq olmur, ya da çox çətindir. Narkotik dünyada ən çox qazanc gətirən vasitələrdən biri olduğuna görə burada maraqlı qüvvələr çoxdur. Məlumdur ki, kiçik adamlar xırda ticarətlə məşğuldurlar. Ancaq böyük, narkotikanı ölkələrə daşıyan və geniş ticarət şəbəkəsi quran adamlar müəyyən imkanlı dairələrə məxsusdurlar. Ölkəmizdə isə dərin araşdırmalar aparıb mübarizəni davam etdirmək lazımdır".

**Yeganə Bayramova**

## Yenidoğulan körpə küçəyə atılıb

Uşağın vəziyyəti normaldı



**Azərbaycanda daha bir yenidoğulan körpə küçəyə atılıb.**

Bu barədə "Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadə feysbuk səhifəsində yazıb.

O bildirib ki, körpə oğlan Ağcabədi rayonunda küçəyə atılıb: "Bu mələk bu gündən anasızdır. 15 gün ərzində bizim bildiyimiz 3-cü atılan uşaqdır. Bu dəfə də Ağcabədidə".

Ağcabədidə küçəyə atılan körpənin vəziyyəti normaldı. Bu barədə "Report"a Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu məlumat verib. O bildirib ki, məsələ Dövlət komitəsinin nəzarətindədir: "Hazırda körpə Ağcabədi Rayon Mərkəzi Xəstəxanasında müayinə olunur, bütün lazımi tədbirlər də görülür".

*Xatırladaq ki, daha öncə Sumqayıtda və Ucarda körpələr küçəyə atılmışdı.*

# Hər yerdə təhlükə var




*Xocalıda mina təhlükəsizlik qaydalarına əməl olunmayıb*

İstənilən lokal və genişmiqyaslı müharibələrin başa çatmasından sonra həmin ərazinin ən böyük problemlərindən biri məhz ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsindən ibarət olur. Ümumiyyətlə, mina problemi dünyada qlobal təhlükə sayılır. Müharibəyə və işğala məruz qalmış bir sıra ölkələr, o cümlədən Azərbaycan da bu prosesdən hələ də əziyyət çəkir.

Ermənistan 30 illik işğal dövründə və müharibə zamanı işğal olunmuş ərazilərimizi total şəkildə minalayıb. Sirr deyl ki, müharibədən sonra bir çox azərbaycanlı şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıb. Qeyd edək ki, son 8 ay ərzində Azərbaycanda mina partlayışları nəticəsində 100-dən çox vətəndaşımız həlak olub və yaralanıb. Son belə bir fakt iyulun 21-də saat 23 radələrində Xocalı rayonunun is?g?aldan azad edilmis? ərazisində yaşanıb. Həmin ərazidə tikinti işləri aparan şirkətin əməkdaşları - Tahir Mahmudov və Yasin Mehralıyev piyada əleyhinə minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Bu barədə məlumat Xocalı Rayon Prokurorluğu tərəfindən təsdiqlənib.

**Mövzu lə bağlı siyasi-şərhçi, jurnalist Aqşin Kərimov "Şərq"ə açıqlama verib. O bildirib ki, işğaldan azad edilmiş ərazilərimizdə bu günləri də mina təhlükəsinə qarşı təhlükəsizlik tədbirləri görülməkdədir:** "Lakin bəzən vətəndaşlarımız arzu və istəklərinə güc gələ bilməyib, həsrətini çəkdiyi torpaqlara gedirlər, oranı ziyarət etmək istəyirlər. Təbii ki, bu, normal hisslərdir. Maraq onları daha çox əraziyə getməyə həvəsləndirir, nəticədə isə minaya düşürlər. Bilirsiniz k, hazırda Qarabağ minalarla zəngindir, üstəgəl, partlamamış sursatlar da var ki, onlar da təhlükə yaradır. Xocalıdakı hadisəyə gəlincə, burda dəqiq mühakimə yürütmək çətindir. Versiya kimi isə onu irəli sürmək olar ki, ya təhlükəsizlik qaydalarına əməl olunmayıb, ya da ki, mina təhlükəsi həmin əməkdaşlara lazımi dərəcədə çatdırılmayıb. Yəqin ki, istintaq məsələni araşdıracaq. İstənilən halda, işğaldan azad edilmiş ərazilərdə olanlar təhlükəsizlik təlimatlarını Quran ayəsi kimi yaddaşına həkk etməlidir. Tanış olmayan yerlərə getmək, şübhə yaradan əşyalara qəti isə toxunmaq olmaz!".

> "İstənilən halda, işğaldan azad edilmiş ərazilərdə olanlar təhlükəsizlik təlimatlarını Quran ayəsi kimi yaddaşına həkk etməlidir"

**Aynurə Pənahqızı**

Qərb ölkələrinin əksəriyyəti hesab edir ki, Çin haker hücumlarından əl çəkmir və bu internet məkanı üçün böyük təhlükə yaradır Beynəlxalq aləmdə yeni qalmaqal yaşanır. ABŞ, Böyük Britaniya və NATO Çini "Microsoft" şirkətinin serverlərinə genişmiqyaslı kiber hücumlarda ittiham edib. Söhbət dünya üzrə təxminən 4 milyon serveri əhatə edən hücumdan gedir.



# Qərb ölkələri Çinə qarşı birləşiblər

*İnternetə kiberhücumların arxasında Pekin dayanır*

Aparılan tədqiqatlar nəticəsində hücumların arxasında Çin Təhlükəsizlik Nazirliyinin dayandığı bəlli olub. Amerikalı mütəxəssislər hesab edirlər ki, Çinin Təhlükəsizlik Nazirliyi bu işdə dünyadakı kiber cinayətkarların "əməyindən" istifadə edib, hücumlar onlarla imzalanan müqavilələr əsasında təşkil edilib.

ABŞ rəsmiləri hadisəylə bağlı çinli həmkarlarıyla təmasa keçərək bu siyasətin kiber müstəvidə təhlükəsizliyə ciddi təhdid olduğunu Pekini anlatmağa çalışıblar. Eyni açıqlama Avropa İttifaqından gəlib. Brüssel də mövcud durumdan ciddi şəkildə narahatdır. Məsələ burasındadır ki, "Microsoft" serverlərinə hücum dünya üzrə 60 min şirkətə zərər vurub. Bunların içərisində xeyli Avropa şirkəti də var. Şirkətin özü ona hücum edən Çinin haker qrupunun adını hallandırıb: Hafnium.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Şərq"ə bildirib ki, baş verən hadisə Böyük Britaniyanı da ciddi narahat edib:**

"Bu ölkənin Xarici işlər naziri Dominik Raab "Microsoft" şirkətinə hücumu ciddi təhdid adlandırıb: "Çin hakerlər vasitəsilə kiber hücumlar təşkil edir, bunun qarşısını almalıyıq. Ancaq Pekinə edilən xəbərdarlıqlara baxmayaraq, kiberhücumlar davam edir".

Çinin kiberhücumları ilə bağlı qalmaqallar keçmiş illərdə də qeydə alınıb. Misal üçün, Çinin maliyyələşdirdiyi hakerlər 2011-2013-cü illər arasında ABŞ-ın boru xətlərinin işlənməsini həyata keçirən 13 operator şirkətin bilgisayarlarını sıradan çıxarmışdılar. Bu haqda ABŞ Federal Kəşfiyyat Xidməti geniş hesabat yayımlamışdı. Həmin kiber hücumlar nəticəsində şirkətlərin bilgisayarlarındakı proqramlar dağıdılmış, işçilərin sayı ilə bağlı məlumatlar və məktublar ələ keçirilmişdi".

**E.Şahinoğlunun sözlərinə görə, Norveç də Çini ittiham edib:** "Norveçin xarici işlər naziri bildirib ki, bu ilin mart ayında ölkə parlamentinin internetinə kiberhücumların arxasında çinli hakerlər dayanıblar. O, bu qənaətə kəşfiyyat məlumatları ilə tanış olduqdan sonra gəldiyini deyib. Oslo Pekinə bu siyasətdən əl çəkməsiylə bağlı xəbərdarlıq edib. Çinin Oslodakı səfiri Norveç Xarici İşlər Nazirliyinə dəvət edilib.

Beləliklə, Qərb ölkələri Çinə qarşı birləşiblər. Qərb ölkələrinin əksəriyyəti hesab edir ki, Çin haker hücumlarından əl çəkmir və bu internet məkanı üçün böyük təhlükə yaradır. ABŞ-la Avropa İttifaqı arasında Çinin artan iqtisadi fəaliyyəti ilə bağlı fərqli yanaşmalar olsa da, kiber hücumlar məsələsində Vaşinqtonla Brüsselin baxışları üzt-üstə düşür və hər ikisi bu işin arxasında Pekinin dayandığına əmindirlər.

Pekin bütün ittihamları rədd edir, ancaq faktlar, dəlillər və araşdırmalar Çini göstərir. "Microsoft" şirkəti konkret haker şirkətinin ünvanını da yayımlayıb. Görünür, 2035-ci il üçün dünyanın supergücünə çevrilməyi qarşısına məqsəd qoyan Çin texnologiyalar yarışında da birinci olmaq istəyir və bu yarışda bütün "alətlərdən" istifadə edir".

**Yeganə Bayramova**

"Hər dəfə uşaqlarıma evə əlidolu qayıdacağıma söz vermişəm. Cəmi bir dəfə sözümün üstündə dura bilməmişəm"

Balıq tutmağı bacarmasam da, bu fəaliyyət növü həmişə mənə maraqlı gəlib. Odur ki, Qurban bayramında "Fürsət bu fürsətdir" deyib paytaxtdakı çimərliklərdən birinə getdim. Necə deyərlər, həm ziyarət, həm ticarət məqsədilə...



Ətrafda xeyli insan var. Əlbəttə, belə də olmalıdır. Bu istinin odunda başqa hara gedə bilərlər? Kimiləri dənizdə üzür, kimiləri top oynayır, kimiləri də qumluqda gəzir, günəşlənir.

# Səbrin yoxdusa, bu iş sənlik deyil



*"Şərq"in əməkdaşı balıqçının sirlərini öyrəndi*

Cəmi bir neçə nəfər isə bir az aralıda balıq tutur. Uzaqdan onlara baxıram. Yanlarında vedrə var. Tilovlarını suya salıb, bir-biriləri ilə söhbət edirlər. Amma dəqiq bilirəm ki, diqqətləri söhbətdə yox, daha çox dənizdədir. Tilovda azca titrəyiş hiss edən kimi aləti dartacaqlar. Həmin vaxtacan isə səbr edəcəklər. Dinməz-söyləməz gözləyəcəklər...

Məşhur Amerika yazıçısı Ernest Hemenqueyin "Qoca və dəniz" romanını xatırlayıram. Əsərdə Santyaqo adlı qoca balıqçı ilə balığın uzun çəkən mübarizəsindən bəhs edilir. İdeya insanın bütün mübarizələrində qalib gəlmək iqtidarına malik olmasıdır. Çimərlikdəki dənizçilər isə o qədər də yaşlı deyillər. Ən cavanının 20-25, ən yaşlısının 40 yaşı olar. Lakin balıqçı ilə balıq arasındakı mübarizə prinsipi dəyişmir.

Qıraqdan həmin balıqçıları izləyir və fotolarını çəkirəm. Bütün diqqətləri məndə olduğuna görə bir şey hiss etmirlər. Sonra onlara yaxınlaşıram. Birinin vedrəsində bir balıq var, digərlərininki isə hələ boşdur. "İşiniz avand olsun" deyirəm. Dilucu təşəkkür edirlər. Vedrəsində balıq olan balıqçının kefi kökdür. Və bu, necə deyərlər, hər halından, hətta tilovu suya salmağından da bəllidir. Sanki tilovla rəqs edir...Təbəssümlə soruşur:

**- Hə, bacıoğlu, sən də balıqçısan?**

"Yox" deyirəm. Və bu dəfə mən sual verirəm:

**- Neçə ildir məşğul olursuz?**

- Mən beş ilə yaxındır burda qalıram - Əli ilə arxadakı bağ evlərinə işarə edir və əlavə edir: "Elə o vaxtdan bəri də yayda hər gün balıq tutmağa gəlirəm".

**- Yorulmursuz?**

Bu dəfə nisbətən gənc balıqçı söhbətə müdaxilə edir:

**- Balıq tutmaqdan hamı yorular, ondan başqa.**

***Balıq da canlıdır. Onun da şüuru var. Sadəcə sən gərək balıqdan daha ağıllı olasan və bunu göstərəsən***

Balıqçıların üzündəki təbəssümü görüb mən də gülərək maraqlanıram:

**- Niyə? Bu qədər maraqlı gələn nədir ki?**

Kişi sanki icazə alırmış kimi "Bir dəqiqə" deyir və tilovu dartmağa başlayır. Ağzı tilova ilişən balıq havada çırpınır. Nə düşündüyünü təxmin etmək çətindir. Hər halda uduzduğunu, aldadıldığını anlayır. Kişi balığı yanındakı vedrəsinə tullayır. Sonra sualımı cavablayır:

**- Hə, qardaşoğlu... Balıqçılıq həyəcandır...**

Təəccüblənirəm. Öz-özümə "Burda həyəcanlı nə var ki?" deyə düşünürəm. Kişi sanki bunu başa düşübmüş kimi davam edir: "Hər dəfə uşaqlarıma evə əlidolu qayıdacağıma söz vermişəm. Cəmi bir dəfə sözümün üstündə dura bilməmişəm. Lakin heç vaxt vədimi yerinə yetirə biləcəyimdən əmin olmamışam. Dənizdir də...İşini bilmək olmur. Elə fələyin də işini bilmək olmur".

**Vedrəsi hələ də boş qolan balıqçı yenə söhbətə qoşulur:**

- Söz açıq da macəralarından...

Həmsöhbətim replikaya reaksiya vermir. Sadəcə yadına nəsə düşübmüş kimi həvəslə danışmağa başlayır: "Bir dəfə düz altı saat dənizdə qalmalı olmuşdum. Səhər saat səkkizdən ta ki dördə kimi. Bax, balıqçılığın çətin tərəfi budur...".

- Kişi tilova xüsusi yemlərdən sancır və "çörək ağacını" "Ya Allah" deyərək yenidən dənizə salladıqdan sonra davam edir: "Hə, balıqçılıq səbr, hövsələ tələb edir. Səbrin yoxdusa, bu iş sənlik deyil. Həm balıq da canlıdır da. Onun da şüuru var. Sadəcə sən gərək balıqdan daha ağıllı olasan və bunu göstərəsən".

Kişi danışdıqca yenə də Hemenqueyin məşhur əsərini xatırlayıram. Görünür, qoca Santyaqolar yenə var: bir balığı tutmaq bəzən günlərlə mübarizə aparmağa hazır olan, onunla, az qala, şahmat oynayan.

Dəniz ləpəlidir. Balıqçıların sözlərinə görə, bu, bəzən onlara əngəl törətsə də, həm də balıqların suyun üzünə çıxmasına yardımçı olur.

Dənizdəkilər də hərdən bir balıqçılara baxırlar. Sanki onlara azarkeşlik edirlər. Elə bu dəmdə balıqçı növbəti dəfə tilovu çəkir. Bu dəfəki balıq əvvəlkilərə nisbətən daha iridir.

Qəfil soruşuram:

**- Görünür, bu işi yaxşı bacarırsınız. Birdən tilovunuza qızıl balıq düşsə...?**

Gülümsəyir. Digərlərinin maraqla cavabı gözlədikləri hiss olunur.

**Kişi tilovu bir az boşaldır və "Nəyimə lazımdır qızıl balıq? Qızıl balığım olsa gərək balıqçılığı atım. Dəyməz". Heyrətlənirəm.**

Balıqçılarla sağollaşıb ətrafda bir az gəzirəm. Göydən sanki alov yağır. Çox istidir. Görəsən, balıqçıları bu istiyə dözməyə sövq edən nədir? Yəqin, iddia, ambisiya. Yenə "Qoca və dəniz"i xatırlayıram:

"...- Sonra özündən xəbər aldı:

**- Qoca, səni kim yıxdı, nə yıxdı?**

- Heç kim, heç nə - özü də cavab verdi,- çox uzaqlara getdim, axırı da belə getdi.

Kaş bizim balıqçılar çox uzaq eşqinə düşməsələr. Çünki uzaqlar təkcə balıqçıların yox, hər kəsin düşmənidir...

**Kənan Novruzov**

## Oktyabrda yoluxma sayı pik həddə çatacaq

Azərbaycanda karantin qaydalarının sərtləşməsi gözlənilləndir



**Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri Tedros Adhanom Ghebreyesus bildirib ki, yüksək yoluxuculuq qabiliyyətinə malik "Delta" ştammı tezliklə dünya üzrə dominant olacaq.**

O da bəyan edilib ki, dünya ölkələri artıq COVID-19 pandemiyasının yeni, üçüncü dalğasının başlanğıcındadır. Çünki hazırda dünyada həm yoluxma, həm də ölüm hallarının yüksək artım tempi qeydə alınır.

Son günlər Azərbaycanda koronavirusa yoluxanların sayında artım müşahidə edilir. Ötən günlərdə ölkəmizdə "Delta" ştammı da aşkarlandı. Bu da mövcud durumun gərginliyindən xəbər verir. Görünən odur ki, karantin qaydalarının yumşalması vətəndaşlar arasında arxayınlıq yaradıb.

**Mövcud durum barədə fikirlərini "Şərq"lə bölüşən həkim-infeksionist Natiq Əliyev bildirib ki, son günlər koronavirusa yoluxma sayındakı artımlar hər birimizi ciddi surətdə narahat edir:** "Yoluxmanın çoxalması o deməkdir ki, dünyada pandemiya bitmədən Azərbaycanda rəqəmlər stabilləşməyə doğru gedirdi. Bu zaman ölkəmizdə karantin qaydaları yumşaldıldı və bu da insanlarda "COVİD bitdi" düşüncəsini yaratdı.

Bu düşüncənin verdiyi rahatlıq fonunda insanlar qaydaları unutdular, yay fəsli gəldiyi üçün də fərdi izolyasiya və gigiyena qaydalarına əməl edilmədi. Bu gün onun nəticəsini yaşayırıq ki, vətəndaşlar arasında artıq "Delta" ştammı da aşkarlanıb.

Dəfələrlə vurğulamışdıq ki, "Delta" ştammı daha tez yayılmağa meyillidir. Ona görə də yayılması sürətli olan bir virus üçün qaydalara əməl edilməyən toplumda xoşagəlməz nəticələr ola bilər.

Qarşıdakı dönəmlər xüsusilə, oktyabr ayında mövsümi infeksiyaların artdığı dönəmdir. Ona görə də yoluxma sayındakı rəqəmlərin daha da artacağını gözləyirik.

Bu da ölkəmizdə karantin qaydalarının yenidən sərtləşdirilməsi və bəzi məhdudiyyətlərə gedilməsini göz önünə gətirir. Tam söyləmək üçün qarşıdakı zamanlarda gedişatı izləmək lazımdır. Belə davam edərsə, sərtləşmə qaçılmazdır".

**Yeganə**

## Suallar o qədər çətin olmayıb

Ən yüksək bal ibtidai sinif müəllimliyi üzrə toplanıb



Riyaziyyat fənni üzrə namizədlər iddia edirlər ki, suallar bir qədər vaxt aparan olub

**Artıq bir neçə gündür ki, ölkəmizdə müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsi keçirilir. Belə ki, iyulun 22-də Azərbaycan dili və ədəbiyyat, həmçinin alman dili fənni üzrə növbəti imtahanlar təşkil olunub.**

**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə imtahan prosesi barədə məlumat verib. Onun sözlərinə görə, müəllimlərin işə qəbulu üzrə imtahan zamanı ən yüksək ballar ibtidai sinif müəllimliyi üzrə toplanılıb:** "Qeyd edim ki, bu illəri keçirilən imtahanlarda suallar bir o qədər də çətin olmayıb. Hətta bəzi namizədlər bunu özləri də təsdiqləyib. Ancaq son imtahanlarda 60 bala demək olar ki, rast gəlinməyib".

*E.Ramizoğlu vurğulayıb ki, digər fənlərdən fərqli olaraq riyaziyyat fənninin sualları vaxt aparan olub:* "Bu baxımdan həmin fənn üzrə imtahan verən namizədlər bundan narazılıq edirlər. Fikrimcə, bu, haqlı narazılıqdır. Riyaziyyat fənni üzrə namizədlər iddia edirlər ki, suallar bir qədər vaxt aparan olub. Bu məqama da xüsusi diqqət yetirmək lazımdır. Yəni 5 rəqəminin əvəzinə 869 yazanda heç də kreaitvlik olmur. Bununla sadəcə namizəd boş yerə yorulur. Bir faktı da qeyd edim ki, bu yaxınlarda imtahanda namizədlərdən biri sualların şəklini çəkib paylaşmışdı. Hətta rəsmi olaraq qeyd etmişdilər ki, həmin şəxsi cəza gözləyir. Qeyd edim ki, MİQ illərdir ki, keçirilir. Ancaq çox təəssüf ki, biz hələ də MİQ suallarını müzakirə edə bilmirik. Çünki suallar ictimaiyyətdən gizli saxlanılır və səbəb bəlli deyil. Hesab edirəm ki, MİQ suallarını paylaşan şəxsə cəza tətbiq etməkdənsə, sualların hər kəs üçün əlçatan olması təmin edilməlidir. İnanıram ki, Təhsil İnstitutu bu barədə məsələni tezliklə həll edəcək".

**Aynurə Pənahqızı**

# Pərvin Səbinəyə hiddətlənib

*"Şahin ölən kimi Türkiyəyə üz tutdun, itdin, ərə getdin, nə etdinsə, günahı öz boynuna"*



Aktrisa Pərvin Abıyeva ilə mərhum rejissor Şahin Zəkizadənin həyat yoldaşı Səbinə Zəkizadə arasında qalmaqal yaşanıb. Buna səbəb P.Abıyevanın "Onun sirri" proqramında Ş.Zəkizadənin bir vaxt onu sevdiyini söyləməsi olub. Hətta Pərvin Şahinin "Ölsəm bağışla" şeirini ona həsr etdiyini bildirib.

S.Zəkizadə açıqlama verərək P.Abıyevanın yalan danışdığını iddia edib.

**Pərvindən S.Zəkizadəyə cavab gecikməyib.**

"Şərq"in məlumatına görə, o, sosial şəbəkədə səhifələrdən birində bu rəyi yazıb:

"Səbinəni uzun illərdir görmürəm, amma özü də gözəl bilir ki, məndə sübutlar, yazışmalar, onun etirafları var. Ay Səbinə, səncə reklama ehtiyac duyuram? Şahin ölən kimi Türkiyəyə üz tutdun, itdin, ərə getdin, nə etdinsə, günahı öz boynuna. Bilinmir haralardasan. Şahinlə səni mən tanış etdim, evləndirdim. Sırf sən ailə qurmaq istədiyin üçün. "Şahinin adı ilə özünü reklam edir", deyib məni qıcıqlandırma. Bu günə qədər kimsə soruşmadı, haradasa danışmadım. Dost-tanışlar da şahiddir. Məncə, bu söhbəti uzatma. O 500 manatı özüm üçün qazanmadım. Sənə həm toyunda, həm Şahinin xəstəliyində, həm də onun ölümündən sonra dəstək olduğum kimi yardım etdim. Bunu ən gözəl sən anlamalısan. Hələ açıqlama verməyin artıq idi. Heç olmasa, verilişə sona qədər baxardın".

**Samirə**

## Bəzən evdə çörək almağa pulumuz olmayıb

Yaşar Nurinin qızı: "Əziyyət çəkmişəm, amma yolumu azmamışam"



**Mərhum Xalq artisti Yaşar Nurinin qızı Ülkər "Söz Baz" proqramında bir sıra açıqlamalar verib.**

**"Şərq"in məlumatına görə, o, verilişdə bunları söyləyib:**

"Mənim düşüncələrim var. Onları həyata keçirəcəm. Pulda-parada gözüm yoxdur. Çünki o vaxt geyindiklərimi bəzi xanımlar indi geyinirlər. Maddi sıxıntılar yaşadığım vaxtlar çox olub. Həmin zamanlarda hamını tanıdım. Anladım ki, hər şey atamla birgə getdi. Çox əziyyət çəkmişəm. Yenə də yolumu azmamışam. Bəzən evdə çörək almağa pulumuz olmayıb. Atamın yaxşı sözü var idi, deyirdi, insan özünü aldada bilər, amma xalqı aldatmaq olmaz. O zamanlarda telefonumu, bahalı bir əşyamı satmışam. İndi şükür, işləyirəm".

**Samirə**

## "Məndən istifadə edirlər"

Nadir dostlarından gileylənib



**Müğənni Nadir Qafarzadə "Xəbər-ətər" proqramında dostlarından gileylənib.**

"Şərq" xəbər verir ki, o, sözügedən verilişdə bunları söyləyib:

"Çox sadəlövh insanam. Tez inanıram. Bir şirin dillə danışanı qəlbimə salıb, evimə dəvət edib, pulların yerini göstərərəm. Sonra görürəm ki, məndən istifadə edirlər. Allah məni hər zaman bataqlıqdan çıxarıb. "Qardaşım", "sənətkar" deyənlər pandemiya dövründə zəng edib, halımı soruşmadılar ki, bu sənətkar nə yeyib-içir? Hər şeyi Allah edir. Bəndə nə karədir ki? O çətinlikləri geridə qoyduq. Bir imtahan idi. Tanrı sevdiyi bəndəni imtahan edir. Dərdi çəkənə verir".

**Samirə**

# Damla narazıdır

*"Kiminləsə problemimiz varsa, zəng edib aydınlaşdıra bilərik"*



Müğənni Damla "Onda görüşək" verilişində bir sıra açıqlamalar verib. "Şərq"in məlumatına görə, o, bunları söyləyib:

"Məni təhqir edənlər, eyni zamanda pərəstişkarlarımı təhqir edirlər. Bir müğənninin bəsit ifasını, sıradan aranjimanını, səhnəyə yaraşmayan geyimini tənqid etmərəm. On-on beş il sonra insanın şərəf və ləyaqətinə toxunmadan, onu alçaltmadan, incitmədən fikir bildirərəm. Qırıcı olmaram. Çünki hər kəsin ailəsi, övladı, valideynləri var. Məsələn, bir xəbər çıxanda, anama görə narahat oluram ki, təzyiqi qalxacaq. Bununla yanaşı məktəbə gedən uşaqlarımız var. Onun sinif yoldaşları niyə söyləsinlər ki, ana-na-atana bu sözü dedilər?! Biz şou nümayəndələri hər problemi, sıxıntını ekranda "qusuruq". Efirdə şirə dönürük, bir-birimizi alçaldırıq.

Anlaya bilmirəm. Kiminləsə problemimiz varsa, zəng edib aydınlaşdıra bilərik, bəlkə nəyisə səhv başa düşüb. Biz Ayda yaşamırıq. Bir-birimizdə telefon nömrələrimiz mövcuddur".

**Samirə**

## Səidə replikasından qalmadı

"Bu, hansı müğənninin "fiqura"sına oxşayır?"



**Müğənni Səidə Sultan sosial şəbəkələrdə yenidən gündəm olub.**

"Şərq" xəbər verir ki, o, bəzi həmkarlarına replika atıb. İfaçı armudu stəkanı ad çəkmədən iki müğənninin bədən quruluşuna bənzədib. S.Sulatnın videosu müzakirə doğurub. O, sözügedən görüntülərdə bunları söyləyib: "Bu, hansı müğənninin "fiqura"sına oxşayır? İkisinin adını çəkmək istəyirəm. Amma qərarsız qalmışam. Siz yazın".

*Əksəriyyət onun Roza Zərgərlini nəzərdə tutduğunu düşünüb.*

**Samirə**

# "Qarşıma populyar olmaq kimi məqsəd qoymamışam"

*İlqar Xəyal: "Başımı aşağı salıb sakit həyatımı yaşamaq, gündəmdən, qalmaqallardan, söz-söhbətlərdən uzaq olmaq istəyirəm"*



"Müğənni səs tonu, görünüşü ilə seçilməldiir. Sükan arxasında olanda radioya qulaq asırıq. Çalışırıq ki, səsin kimə aid olduğunu tapaq. Məsələn, bu Aygün Kazımovadır, Zülfiyyə Xanbabayevadır və sair deyirik.

Sonra estradamızdan başqa mahnılar səslənir. İfaçını tanımaq olmur. Düşünürük ki, görəsən, oxuyan kimdir?".

**"Şərq" xəbər verir ki, bu sözləri "Səhər-səhər" proqramında müğənni İlqar Xəyal söyləyib. O, bəzi həmkarlarına irad bildirib:**

"Bir-birinə bənzəməyə çalışan ifaçılar indi gündəmdə olacaqlar, pullarını qazanacaqlar. Amma tarixə düşməyəcəklər. Bir-iki ildən sonra unudulacaqlar. Gülağa Məmmədov, Yalçın Rzazadə heç vaxt unudulmur. Çünki Y.Rzazadə ifa edəndə o olduğunu bilirdik. Mən "İncə bellim" mahnısını ifa etmişəm. Hətta ondan bir ton zildən oxumuşam. Nə qədər oxusam da, tarixdə Y.Rzazadənin ifası qalacaq. Qarşıma populyar olmaq kimi məqsəd qoymamışam. Buna ehtiyac da yoxdur. Başımı aşağı salıb sakit həyatımı yaşamaq , gündəmdən, qalmaqallardan, söz-söhbətlərdən uzaq olmaq istəyirəm. Buna baxmayaraq verilişlərdən xəbərlər yazırlar, müzakirə edirlər. Hər gün sosial şəbəkələrə girəndə arzu edirəm ki, adım orda çıxmasın. Əməkdar artist, sevdiyim dostum var. Məni onunla "evləndirdilər". Verilişdə süjet canlandırırdıq, mahnı ifa edib, əl-ələ tutmuşduq. O kadrı paylaşıb yazıblar ki, İlqar Xəyal həmin müğənniyə evlilik təklifi edib. Güya o da mənə "yox" deyib. Halbuki, heç vaxt imtina etməzdi. Özü də dedi ki, sən mənə evlilik təklif etsən, "yox" deməzdim".

**Samirə**



## Cənazəyə getməyib konsert verdi

**Müğənni Alişanın yaxın dostu Demet Akalın qardaşının cənazəsinə qatılmayıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, Demet bunun səbəbini günəş allergiyasına yoluxması ilə əlaqələndirib. Daha sonra müğənninin dünən gecə konsert verdiyi ortaya çıxıb.

Ötən gecə reallaşan konsertdə çəkildiyi iddia olunan görüntülər sosial mediada sürətlə yayılıb. İzləyicilər bu hərəkətinə görə Demeti qınayıb.

*Qeyd edək ki, müğənni Alişanın qardaşı Selçuk Tektaş koronavirusdan vəfat edib.*

# Ən çox qazanan musiqiçilər

*Siyahıda ilk yeri 23,8 milyon dollarla Teylor Svift tutub*



"Billboard" jurnalı 2020-ci ildə ən çox qazanan musiqiçilərin siyahısını hazırlayıb.

Axşam.az xəbər verir ki, pandemiya şəraitində illik qazancı ilə siyahıda ilk yeri 23,8 milyon dollarla Teylor Svift tutub. Onun 2018-ci ildəki gəlirinin 99,6 milyon dollar olduğu diqqətdən yayınmayıb. Siyahıda həyatda olmayan, lakin özlərindən sonra əsərləri ilə pul qazandırmağa davam edən sənətçilər də var.

*Ən çox gəlir əldə edən 20 musiqiçini və qazanclarını təqdim edirik*

**1**. Teylor Svift - 23,8 milyon dollar
**2**. Post Malone - 23,2 milyon dollar
**3**. Selin Dion - 17,5 milyon dollar
**4**. Eagles - 16,3 milyon dollar
**5**. Billi Ayliş - 14,7 milyon dollar
**6**. Dreyk - 14,2 milyon dollar
**7**. "Quenn" - 13,2 milyon dollar
**8**. "The Beatles" - 12,9 milyon dollar
**9**. YoungBoy Never Broke Again - 11,9 milyon dollar
**10**. Lil Baby - 11.7 milyon dollar
**11**. The Weekend - 10.4 milyon dollar
**12**. "Aventura" - 10,2 milyon dollar
**13**. "AC/DC" - 10,1 milyon dollar
**14**. Eminem - 9,7 milyon dollar
**15**. Lil Uzi Vert - 9,5 milyon dollar
**16**. Lyuk Kombs - 9,2 milyon dollar
**17**. DaBaby - 9,1 milyon dollar
**18**. "Metallica" - 9 milyon dollar
**19**. "BTS" - 8.9 milyon dollar
**20**. "Pink Floyd" - 8.8 milyon dollar

# Gürcüstanda hər gün 150-200 uşaq koronavirusa yoluxur



**"Gürcüstanda hər gün 150-200 uşaq koronavirusa yoluxur. Bu çox böyük göstəricidir".**

Bu barədə Tbilisidəki İaşvili adına Tibbi Klinikanın direktoru İvane Çxaidze bu gün keçirilən mətbuat konfransında məlumat verib.

Bildirib ki, uşaqlar arasında gündəlik yoluxma ümumi gündəlik yoluxanların 10 faizini təşkil edir.

Direktor deyib: "Əgər statistikaya nəzər salsaq görərik ki, gündəlik yoluxmada uşaqların sayı 10 faiz təşkil edir. Bu isə gündəlik 150-200 uşağın koronavirusa yoluxması deməkdir".

*Qeyd edək ki, Gürcüstanda son sutkada daha 2261 nəfər koronavirusa yoluxub, 18 nəfər pandemiyanın qurbanı olub.*

**Elan**

Azercell Telekom" MMC abunəçilərini "Whatsapp" tətbiqi, SMS və digər kanallar üzərindən göndərilən şübhəli məzmunlu keçidlərə və ismarıclara reaksiya verməməyə çağırır. Bildiririk ki, müvafiq məzmunun Azercell-ə heç bir aidiyyatı yoxdur. Yarana biləcək əlavə xərclərin qarşısını almaq üçün "Azercell Telekom" öz abunəçilərinə şübhəli zənglərə və SMS-lərə reaksiya verməməyi, eləcə də belə internet saytlardan istifadə etməməyi, həmçinin istifadə edilən cihaz və nömrə ilə bağlı təhlükəsizlik tədbirlərinə əməl etməyi, telefonların nəzarətsiz qalamamasını, xidmətlərdən istifadə ilə əlaqədar əldə edilən şifrəni 3-cü şəxslərə bildirməməyi, şübhəli məzmunlu müxtəlif oyun, yarışma və sairlərdən yararlanmamağı tövsiyə edir.

## TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 9177-106243/21-15-19 saylı, 01.06.2021-ci il tarixli sifarişi ilə, Bakı şəhəri, Nərimanov rayonu, Əliəşrəf Əlizadə küçəsi, ev 36 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində olan, ümumi sahəsi 631 kv. metr olan qeyri-yaşayış sahəsinə dair 22 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qeyri-yaşayış sahəsi ilkin satış qiyməti olan 1.072.700 (bir milyon yetmiş iki min yeddi yüz) manatdan 10% aşağı, yəni 965.430 (doqquz yüz altmış beş min dörd yüz otuz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 03 avqust 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 48.271,5 (qırx səkkiz min iki yüz yetmiş bir manat əlli qəpik) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 9438-233797/2018-15-27 saylı, 06.07.2021-ci il tarixli sifarişi ilə, beton dabanaltı (1000x1000) - 1 ədəd; beton dabanaltı (1000x800) - 1042 ədəd; beton bilərzik (1000x250) - 37 ədəd; veton bilərzik (1000x300) - 90 ədəd; beton bilərzik (1000x400) - 681 ədəd; beton bilərzik (1000x600) - 655; beton bilərzik (1500x400) - 70 ədəd; beton bilərzik (1500x600) - 101 ədəd; beton konus (1000x600) - 787 ədəd; beton konus (1500x600) - 75 ədəd; beton plitə (1,5) - 378 ədəd; beton plitə (2x2) - 81 ədəd; beton plitə (1x1) - 13 ədəd və 29 ədəd beton boruya (800x2000) dair 22 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avadanlıqlar ilkin satış qiyməti olan ümumilikdə 320.245 (üç yüz iyirmi min iki yüz qırx beş) manatdan 10% aşağı, yəni 288.220,5 (iki yüz səksən səkkiz min iki yüz iyirmi manat əlli qəpik) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 03 avqust 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 28.822 (iyirmi səkkiz min səkkiz yüz iyirmi iki) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə **1** (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); **2)** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; **3)** Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56**

**e-mail: info@e-herrac.com**

*rəsmi internet saytı: e-herrac.com*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1245



# Tualet belə qızılla bəzədilib

Əməliyyat zamanı polis qrupları məəttəl qaldı



**Rusiyada keçirilən rüşvət əməliyyatında polis qrupları qarşılaşdıqları mənzərə qarşısında məəttəl qalıb.**

"Şərq" türk mediasına istinadən bildirir ki, Stavropol Trafik Şöbə müdiri Aleksey Safanovun evində aparılan axtarış zamanı evin hər hissəsinin, hətta tualetlərin də qızıl örtüklü olduğu üzə çıxıb. Safanovun rütbəsini və səlahiyyətlərini aşan hadisələrdə iştirak etdiyi və mafiya təşkilatları ilə əlaqələrinin olduğu da müəyyən edilib. Əməliyyatdan dərhal sonra Safanov və onun yanında işləyən 35-dən çox yol polisi əməkdaşı saxlanılıb.

**Yeganə**

# İnsanların gözü qarşısında...

15 yaşlı qıza dənizdə təcavüz edildi



**Hadisə İngiltərənin Dorset qraflığı ərazisindəki Burnemut sahillərində baş verib.**

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, bu barədə B.Britaniya yerli mətbuatı məlumat yayıb. Dənizdə rəfiqələri ilə birlikdə topla oynayan qızcığaz gözlənilmədən təcavüzə məruz qalıb. Hadisə həmin vaxt dənizdə çimən insanların gözü önündə baş verib. Təcavüzə məruz qalan qızın 15 yaşında, təcavüzkarınsa 17 yaşlı birisi olduğu deyilir. Hazırda polis 17 yaşlı təcavüzkarın axtarışlarını davam etdirir.

**Məlahət**

# Dünyanın ən bahalı dondurması...

Dubayda 13 min manata satılıb



**Dünyanın ən bahalı dondurması Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ən böyük şəhəri olan Dubaydakı bir kafedə satılır.**

"Black Diamond" adlı dondurmanın üzərində 23 karat yeməli qızıl var.

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, dondurma 3 min Birləşmiş Ərəb Əmirliyi Dirhəminə (13.000 manat) satılır. Dondurma Dubayda səyahət edən bir vloqer tərəfindən aşkar edilib və göstərilib.

**Yeganə**

# "Meymun çiçəyi"

ABŞ-da yeni virus yayılıb



**ABŞ-da yeni virus meydana çıxıb. Bu barədə "Şərq" "Habertürk"ə istinadən xəbər verir.**

Bildirilir ki, ölkədə 200-dən çox adam nadir rast gəlinən "meymun çiçəyi" xəstəliyinə yoluxub. Onlar artıq nəzarətə götürülüblər. Sonuncu dəfə ölkədə bu xəstəliyə 2003-cü ildə rast gəlinmişdi.

**Kənan**



# Barışmaq üçün gəldi, dəhşət saçdı

*Ov tüfəngi ilə 2 nəfəri qətlə yetirdi*



**Ankarada Özkan Güclü evi tərk etmiş həyat yoldaşı ilə barışmaq üçün qayınatasının evinə gedib. Lakin qayınatası Ahmet Meral ilə qardaşı oğlu Burhan Koyunçunu tüfənglə vuraraq qətlə yetirib. Polisə təslim olan Ö.Güclü həbs edilib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, hadisə günorta saatlarında Ankaranın Haymana bölgəsi, Yurtbəyli məhəlləsində meydana gəlib. Özkan Güclü Haymana bələdiyyəsində çalışır. 3 övlad atasıdır. Həyat yoldaşı Dərya Güclü isə bir müddət əvvəl evi tərk edərək atasıgilə gedib. Ö.Güclü barışmaq üçün qayınatasının evinə gedib. Qayınata yeznəyə "qızıma bir az zaman ver", deyib. Bu zaman A.Meralın qardaşı oğlu Burhan Koyunçu evə gəlib və tərəflər arasında mübahisə yaranıb, mübahisə münaqişəyə keçib. Ö.Güclü evinə qayıdıb, tüfəngi götürərək qayınatasıgilə qayıdıb və həm qayınatasına, həm də onun qardaşı oğluna atəş açıb. Yaralılar xəstəxanaya aparılsa da, həyatlarını xilas etmək mümkün olmayıb. Ö.Güclü atəş etdikdən sonra qaçıb, lakin axşam saatlarında polisə təslim olub. Yurtbəyli məhəlləsinin muxtarı Fikrət Başak yerli mediaya açıqlamasında Ö.Güclü ilə həyat yoldaşı arasında sıxıntı yaşandığını, xanımın atası evinə getdiyini, Ö.Güclünün də bayram günü həyat yoldaşı ilə barışmaq üçün qayınatasıgilə getdiyini, lakin yaşanan münaqişənin qətllə nəticələndiyini təəssüflə bildirib.

**Məlahət**

# Bayram sonrası dəmirçilərin işi başladı





Kəllə-paça ütülər

**Qurban bayramı sonrası dəmirçilərin işi artıb. Qurbanlıq kəsənlər heyvanların başını, qol-ayaqlarını ütülmək üçün dəmirçilərə daşıyır. Hatayda dəmirçi dükanlarında uzun növbələr yaranıb.**

Dəmirçilərsə baş-ayaq ütməyin dəmir döyməkdən çətin olduğunu deyir və bu zor işin qarşılığında vətəndaşdan 30 lirə aldıqlarını bildirirlər. Dəmirçilər il ərzində dəmir işləri görmək üçün kürədikləri alovu bu dəfə kəllə-paça üçün hazır saxlayır. Antakya Dəmirçilər Odası başkan vəkili Davut Karakaş AA-ya açıqlamasında bildirib ki, bayram günlərində dəmirçilər kəllə-paça ütməklə pul qazanırlar. "Şərq" bu barədə "Milliyet.com"a istinadən xəbər verir. Dəmirçilər deyir ki, bayramda ütülmüş kəllə-paçadan yemək hazırlamaq ənənədir. Dəmirçilər də bunun sayəsində ikiqat bayram yaşayır. Qurbanlıqların baş-ayağını ütüb pul qazanırlar. Usta Necdet Dəmirəl deyir ki, pul qazanmaq üçün bu günü gözləyirlər: "Qurban bayramı bizim üçün 2 qat bayramdır. Həm qurbanlıqlar kəsilir, fağır-füqəraya paylanır, həm də biz kəllə-paça ütməklə əlavə pul qazanırıq. İsti yay günündə odun qarşısında dayanmaq çox zordur. Amma bu işi hər kəs bacarmır. Evlərdə bunu etmək demək olar, mümkünsüz. Vətəndaşlar kəllə-paçaları bizə gətirir, biz də gur yanan ocaqda, dəmir əridib döydüyümüz ocaqda kəllə-paça ütürük. Bu iş dəmir döyməkdən çox çətindi".

**Məlahət**



# Adel onunla eşq yaşayır

**Britaniyalı məşhur müğənni Adel yeni münasibətə başlayıb.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, bu barədə ifaçıya yaxın mənbələrdən biri açıqlamasında deyib.

Onun sözlərinə görə, Adel bu yaxınlarda basketbol matçını birlikdə izlədiyi idman agenti Riç Polla eşq yaşayır. Cütlük hələlik münasibətlərini gizli saxlamağa çalışır.

*Qeyd edək ki, müğənni keçmiş həyat yoldaşı Simon Konekkiylə bu il boşanıb.*